AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

4 OKTYABR 2018-ci il CÜMƏ AXŞAMI № 221 (6254) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Çexiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Ekertin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Milan Ekert fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir Milan Ekert etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.



Dövlətimizin başçısı Azərbaycan-Çexiya ikitərəfli münasibətlərinin səviyyəsindən və ölkələrimiz arasında qarşılıqlı fəaliyyətdən məmnunluğunu ifadə etdi, eyni zamanda, əlaqələrimizin Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO əməkdaşlığı baxımından da önəmini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz həyata keçirilən əməkdaşlığın digər sahələrdə də yaxşı nəticə verməsində maraqlıdır və dövlətimizin başçısı buna nail olunacağına əminliyini ifadə etdi. Prezident İlham Əliyev bu baxımdan parlamentlərarası, hökumətlərarası, biznes icmaları arasında əlaqələrin və qarşılıqlı səfərlərin bu işə yaxşı töhfə verə biləcəyini vurğuladı. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Fövqəladə və səlahiyyətli səfir Milan Ekert ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi, bu il həm Azərbaycanda, həm də Çexiyada respublika yaranmasının 100 illiyinin qeyd edilməsinin əlamətdar hadisə olduğunu dedi. Səfir vurğuladı ki, ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasından keçən 25 il ərzində ikitərəfli münasibətlərimizin inkişafında böyük nəticələr əldə edilib. Milan Ekert səfirlik fəaliyyəti dövründə əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

**AZƏRTAC**

### "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın zəngin tarixə və bənzərsiz təbiətə malik qədim yaşayış məskənlərindən biri olan İsmayıllı rayonunun Basqal qəsəbəsi özünün memarlıq xüsusiyyətləri ilə orta əsrlər şəhər mədəniyyətinin elementlərini müasir dövrümüzə qədər çatdırmış unikal yaşayış məskənlərindən biridir. Burada salınmış Qoşabulaq, Dərəməhəllə, Dəmirçibazar və digər qədim məhəllələr, IX-XIX əsrlərə aid istehkamlar, məscidlər, su və kanalizasiya şəbəkələri, hamam, bulaqlar, mülklər və 300 ildən artıq yaşı olan çinar ağacı kimi tarix-mədəniyyət abidələri mədəni irsimizin qiymətli nümunələri sırasındadır.

Basqalda ipəkçilik, dəmirçilik kimi sənətlər əhalinin əsas məşğuliyyəti olmuşdur. Burada hazırlanan kəlağayılar XII-XIII əsrlərdə Qafqazda, Şərq və Avropa ölkələrində böyük maraq doğurmuşdur.

1989-cu ildə yaradılmış "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun inkişafı ilə bağlı son dövrdə bir sıra tədbirlər həyata keçirilmiş, o cümlədən qəsəbə təbii qazla təmin olunmuş, Basqal çayı üzərində yeni körpü tikilmiş, abadlıq işləri görülmüş, qədim küçələr qismən çay daşı ilə döşənmiş, bulaqlarda müəyyən bərpa işləri aparılmışdır.

Bununla belə, hazırda qoruq ərazisində mövcud olan tarix və mədəniyyət abidələri üzərində bərpa-konservasiya, rekonstruksiya işlərinin aparılmasına, mühəndis-kommunikasiya təminatı sistemlərinin və xətlərinin, yol-nəqliyyat infrastrukturunun təmiri və yenidən qurulmasına, ənənəvi xalq sənətkarlığı növlərinin dirçəldilməsinə, istirahət-turizm infrastrukturu obyektlərinin və xidmət sahələrinin yaradılmasına, yeni iş yerlərinin açılmasına xüsusi diqqətin yetirilməsi zərurəti yaranmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi bir ay müddətində:

*1.1.* "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində yaranmış vəziyyətin araşdırılmasının nəticələri haqqında ətraflı arayış hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun uzunmüddətli qorunması, konservasiyası, bərpası ilə bağlı konsepsiyanın və fəaliyyət proqramının layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.3.* "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun idarə edilməsinin beynəlxalq standartların tələblərinə uyğun olaraq qurulması ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 3 oktyabr 2018-ci il.**

# Azərbaycan-Rusiya əməkdaşlığı mühüm beynəlxalq əhəmiyyətə malikdir

**Dövlət başçısı deyib ki, ötən illə müqayisədə biz bu il "Şimal-Cənub" dəhlizilə yükdaşımaların nəqlinin 100 dəfədən çox artdığını görürük. Hesab edirik ki, bu dəhliz Avrasiyanın ən mühüm nəqliyyat xətlərindən biri olacaq, bununla da ölkələrimizin daha da yaxınlaşmasına kömək edəcək və tranzit potensialımızı artıracaq.**

Azərbaycanın dünyanın aparıcı dövlətləri ilə münasibətləri daim sıxlaşır. Bu günlərdə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ölkəmizə işgüzar səfəri və Heydər Əliyev Mərkəzində IX Azərbaycan-Rusiya Regionlararası Forumunun rəsmi açılış mərasimində iştirakı bu prosesə əyani misaldır.

Biz bilirik ki, müasir dünyamızda çox gərgin siyasi, iqtisadi qarşıdurmalar baş verir, qütbləşmə davam edir. Belə bir şəraitdə Rusiya və Azərbaycan prezidentlərinin regionlararası forumda iştirakı həmin qurumun fəaliyyətinin nə qədər böyük əhəmiyyət kəsb etdiyini sübut edir. Bu artıq IX forumdur. Azərbaycan rəhbərliyinin düşünülmüş və balanslaşdırılmış siyasəti dünyanın müxtəlif qütbündə dayanan siyasi gücləri ilə pozitiv münasibətlər qurmağa və inkişaf etdirməyə imkan verir. Gələn il Azərbaycan-Rusiya Regionlararası Forumunun yubileyi olacaq. Azərbycanın Rusiya üçün mühüm əhəmiyyətini bu fakt da sübut edir ki, ilk forum 2010-cu ildə Azərbaycanda keçirilib. Bununla da dünya ərazisinin beşdə birini tutan bu nəhəng qonşu ölkə ilə çox fəal regionlararası əməkdaşlığa təkan verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimindəki çıxışında iki ölkə arasında əlaqələrin inkişafında da Azərbaycan və Rusiya prezidentlərinin müntəzəm görüşlərinin böyük rol oynadığı barədə deyib: "Biz Vladimir Vladimiroviçlə müntəzəm görüşürük. Bu yaxınlarda - sentyabrın əvvəlində mən Rusiya Federasiyasına rəsmi səfər etdim, biz çox məhsuldar danışıqlar apardıq. Gündəliyin bütün məsələləri üzrə çox mükəmməl fikir mübadiləsi oldu. Bir aydan da az müddətdən sonra Rusiya Prezidentinin Azərbaycanda olması bizim aramızda mövcud münasibətlərin parlaq sübutudur. Mənim səfərim çərçivəsində fəaliyyətin əksər sahələrini əhatə edən və uzun illər əvvəlcədən bizim münasibətlərimizin gələcəkdə daha da inkişafını müəyyənləşdirəcək 16 sənəd imzalanmışdır. Həmçinin qeyd etməliyəm ki, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putin son 5 il ərzində 4-cü dəfədir ki, Azərbaycanda olur. Mən də müntəzəm olaraq Rusiyaya səfər edirəm, bu da bizim tərəfdaşlığımızın, ölkələrimiz arasında dost, mehriban qonşuluq münasibətlərinin parlaq sübutudur".

Beləliklə, iki liderin qarşılıqlı fəal rəsmi əlaqələrinin intensivliyi ticari-iqtisadi əlaqələrin də inkişaf dinamikasının sürətlənməsinə güclü stimul verib. 2017-2018-ci illərdə əmtəə dövriyyəsi davamlı surətdə artıb. Hazırda Rusiya Azərbaycan üçün idxal üzrə bir nömrəli tərəfdaşdır və ölkəmizin qeyri-neft sektoru məhsullarının ixracı üzrə də ilk yerdədir. Qonşu ölkənin dövlət başçısı öz çıxışında iqtisadi bağlantılar barədə danışarkən vurğulayıb: "Rusiya Federasiyasının təxminən 70 regionu Azərbaycanın regionları ilə sıx işləyir... Bütövlükdə Rusiya ilə Azərbaycan arasında münasibətlərdən danışarkən qeyd etmək istərdim ki, dövlətlərimiz arasında münasibətlər, sözsüz ki, mehriban qonşuluq və qarşılıqlı hörmət prinsipləri əsasında qurulur. Biz həmişə maraqlar balansı axtarırıq və onu tapırıq.

(davamı 2-ci səhifədə)

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika– ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel, 2, 13, 20, 31 may, 8, 24, 30 iyun, 18, 25, 29 iyul, 1, 30 avqust, 1, 2, 4 sentyabr və 3 oktyabr tarixli saylarımızda)*

### 4 sentyabr 2018-ci il

○ **Braziliya Federativ Respublikasının Prezidenti Zati-aliləri cənab Mişel Temerə:** Braziliya Federativ Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 5 sentyabr 2018-ci il

○ **Pakistan İslam Respublikasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Arif Alviyə:** Pakistan İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

○ **Azərbaycan Prezidenti İlham Əliyev Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



○ **Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyaya rəsmi səfərə gəlib.**

○ **Makedoniya Respublikasının Prezidenti Zati-aliləri cənab Gyorge İvanova:** Makedoniya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 6 sentyabr 2018-ci il

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri: Zaqrebdə rəsmi qarşılanma mərasimi.**

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri:** Azərbaycan və Xorvatiya prezidentlərinin təkbətək görüşü.



○ **Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri:** Azərbaycan və Xorvatiya prezidentlərinin geniş tərkibdə görüşü olub.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri:** Azərbaycan-Xorvatiya sənədləri imzalanıb.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri:** Azərbaycan və Xorvatiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər: Prezident İlham Əliyevin bəyanatı.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri:** Prezident İlham Əliyev Zaqrebdə "Xorvatiya Qurbanlarının Səsi-Ağrı Divarı" abidəsini ziyarət edib.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri:** Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiyanın Baş naziri Andrey Plenkoviç ilə işçi nahar edib.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri:** Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviç ilə görüşüb.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyaya rəsmi səfəri:** Ali qonağın şərəfinə: sentyabrın 6-da Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib.

○ **Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə Zaqrebdə rəsmi ziyafət verilib:** Prezident İlham Əliyevin çıxışı.

### 7 sentyabr 2018-ci il

○ **Azərbaycanın yəhudi icmasına:** Yəhudi xalqının yeni il bayramı - Roş-Ha-Şana münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

***(davamı növbəti saylarımızda)***

# Ədliyyə və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzindədir





**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, ədliyyə naziri Fikrət Məmmədov Masallı rayonunda Masallı, Cəlilabad və Yardımlı rayonlarından olan vətəndaşların qəbulunu keçirib.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdən əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək, önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram ifadə olunub.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilərək, qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Bölgə sakinləri onların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasına, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı nazir yerli ədliyyə və məhkəmə orqanlarına baş çəkərək fəaliyyəti və iş şəraiti, habelə Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi Masallı "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub. Fikrət Məmmədov ədliyyə işçiləri ilə görüşərək fəaliyyətin təkmilləşdirilməsi, vətəndaşlara qayğılı münasibət göstərilməklə məmnunluğun təmin olunması, neqativ halların yolverilməzliyi, etik davranış qaydalarına və nizam-intizama dönmədən əməl edilməsi ilə bağlı qəti tapşırıqlar verib.

Həmçinin Dünya Bankı ilə birgə həyata keçirilən "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində Masallıda inşa olunan yeni məhkəmə binasının tikintisinin gedişatı ilə tanış olunub. Müasir tələblərə uyğun inşa olunan üç mərtəbədən ibarət məhkəmə binasının vətəndaşlarla hakimlər arasında qeyri-prosessual münasibətlərin qarşısını almaq məqsədilə ictimai və inzibati zonalara bölünməsi, həmçinin elektron məhkəmə informasiya sisteminin tətbiqi ilə bağlı zəruri infrastrukturun quraşdırılması nəzərdə tutulub. Nazir tikinti işlərinin vaxtında və keyfiyyətlə aparılmasına dair müvafiq göstərişlər verib.

Həmin gün ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Şirvan Apellyasiya Məhkəməsinin və onun yurisdiksiyasına daxil olan bölgənin birinci instansiya məhkəmələri sədrlərinin və hakimlərinin iştirakı ilə geniş zona müşavirəsi keçirib.

Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının aidiyyəti məsul işçilərinin də iştirak etdikləri müşavirədə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirlər, bu sahədə yol verilən nöqsanlar və qarşıda duran vəzifələr müzakirə olunub.

Müşavirədə Azərbaycan Prezidenti İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq, görülən işlərdən danışan Fikrət Məmmədov məhkəmə sisteminin müasirləşdirilməsini, hakimlərin ən şəffaf seçimini, elektron məhkəmə informasiya sisteminin tətbiqini, yeni məhkəmə bina və komplekslərinin tikilərək istifadəyə verilməsini qeyd edərək, həyata keçirilən tədbirlərin məhkəmə fəaliyyətinin yüksək səviyyədə təmin olunmasına, vətəndaşların müraciət imkanları artırılmaqla məhkəmə sisteminə əlçatanlığın asanlaşdırılmasına və insan hüquqlarının etibarlı təminatına yönəldiyini bildirib.

Qeyd olunub ki, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi çərçivəsində məhkəmə qərarlarının ədalətliliyinin təmin olunması, şəffaflığın artırılması, korrupsiyanın yolverilməzliyi daim diqqətdə saxlanılır. Ötən dövrdə kobud qanun pozuntularına, korrupsiya hüquqpozmalarına və vətəndaşların haqlı narazılığını doğuran digər nöqsanlara yol verən hakimlər barəsində Məhkəmə-Hüquq Şurasının qərarları ilə ciddi intizam tədbirləri görülüb. Təkcə ötən il qiymətləndirmə nəticəsində 20 hakim, o cümlədən 7 məhkəmə sədrinin səlahiyyətinə xitam verilib, 6 məhkəmə sədri və apellyasiya məhkəməsinin 8 hakimi aşağı işə keçirilib.

Müşavirədə hakimlər tərəfindən bəzi hallarda süründürməçilik, işlərin hərəkətsiz saxlanılması, tərəflərin bərabərliyi və çəkişmə prinsipinin real təmin olunmaması, Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə etinasız yanaşılaraq vətəndaşlarla kobud rəftara yol verilməsi qeyd edilərək belə halların insanların haqlı narazılığına səbəb olduğu bildirilib.

Bununla bağlı məhkəmə hakimiyyətində mənəvi cəhətdən saf hakimlərin təmsil olunmasının zəruriliyi vurğulanıb, hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilərək hakim adına və nüfuzuna xələl gətirən şəxslərin məhkəmə sistemindən kənarlaşdırılması, eləcə də hakim korpusunun yeni nəsil hüquqşünaslarla komplektləşdirilməsi üzrə işlərin davam etdirildiyi qeyd olunub.

Həmçinin etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşların məhkəmələrə etimadının artırılması ilə bağlı qarşıda duran vəzifələr diqqətə çatdırılıb, apellyasiya məhkəmələri tərəfindən prinsipiallığın artırılmasının, qanun pozuntularına ciddi reaksiya verilməsinin, neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin vacibliyi vurğulanıb.

**AZƏRTAC**

# Azərbaycan-Rusiya əməkdaşlığı mühüm beynəlxalq əhəmiyyətə malikdir

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan Prezidentinin indicə haqqında dediyi bu yaxınlardakı Soçi danışıqlarının gedişində, sözsüz ki, bizim dövlətlərarası əlaqələrimizin gələcək quruculuğu üçün əlavə normativ baza yaradan bir sıra sənədlər, razılaşmalar imzaladıq".

Müasir dövrümüzdə ölkələrarası iqtisadi və siyasi əlaqələrdə kapital yönəldilməsi məsələsi çox əhəmiyyətli rol oynayır və davamlı inkişafı təmin edən əsas amillərdən biri sayılır. Bu sahədə də çox müsbət dinamika vardır. Energetika, neft-qaz sahələrində səmərəli əlaqələr mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində "Rossneft" ilə "SOCAR" şirkətləri arasında səmərəli əməkdaşlıq barədə mühüm sənəd - müqavilə imzalanması öz effektliyini artıq təsdiq etmişdir. Rusiyanın digər şirkəti "LUKoil" 20 ildən artıqdır ki, Azərbaycanda uğurla işləyir, ölkəmiz üçün mühüm investordur. Elektroenergetika sahəsində fəaliyyətlər pozitiv istiqamətdə davam edir, belə ki, enerji sistemləri paralel rejimdə işləyir. Dövlət başçısı bu istiqamətdə müzakirələrin əhəmiyyəti barədə deyib ki, biz, sentyabr səfəri çərçivəsində yüksək gərginlikli elektrikötürücü xəttin ikinci növbəsinin tikintisi ilə bağlı məsələləri müzakirə etdik, razılaşma bu istiqamətdə inkişafa geniş imkanlar açacaq. Həmin xəttin tikintisi elektrik mübadiləsini daha çox nizama salmağa və bu sahədə üçüncü ölkələrlə əlaqələri genişləndirməyə imkan verəcək.

Nəqliyyat sahəsində çox fəal əməkdaşlıq beynəlxalq səviyyəli dəhlizin inşası ilə nəticələnib. İki ölkənin birgə reallaşdırdığı "Şimal-Cənub" layihəsi artıq öz bəhrələrini verir. Ötən illə müqayisədə 2018-ci ildə bu dəhlizlə yükdaşımaların nəqlinin 100 dəfədən çox artması səmərəni aydın təsdiq edir. Bu dəhlizin inşasının İran tərəfində də başa çatması ilə Avrasiyanın ən mühüm nəqliyyat xətlərindən biri olacağı şübhəsizdir. Təbii ki, nəqliyyat infrastrukturunun dinamik inkişafı iki ölkənin daha da yaxınlaşmasına kömək edəcək və Azərbaycanın da tranzit potensialını artıracaq. Bu gün Azərbaycan milli aviaşirkəti Rusiyanın müxtəlif şəhərlərinə həftədə 50-dən çox reys həyata keçirir. Əgər, Rusiyanın aviadaşıyıcılarını da əlavə etsək bu ölkələr arasındakı ünsiyyət və əlaqələrin intensivliyinin həddini aydın təsəvvür etmək olar.

İki ölkə liderlərinin siyasi fəallığı turizm sahəsində də inkişafa stimul verib. Rusiya vətəndaşları tərəfindən Azərbaycana ziyarətin həddi əhəmiyyətli dərəcədə artıb. Təkcə bu ilin 9 ayı ərzində 700 minədək rusiyalı Azərbaycana gəlib. Bu rəqəmin gələcəkdə daha da artacağı proqnozlaşdırılır.

Dünya valyuta bazarlarında və maliyyə sistemində qeyri-sabitliyi nəzərə alsaq ölkələrarası maliyyə mübadiləsinin getdikcə daha çox əhəmiyyət qazandığını vurğulamalıyıq. Azərbaycanla Rusiya arasında bank sahəsində də çox müsbət əməkdaşlıq və perspektivlər mövcuddur. Rusiyanın VTB kimi iri bankının Azərbaycanda fəaliyyəti bu əlaqəyə əyani misaldır. Qeyd edək ki, bu bankın ən iri xarici səhmdarı da Azərbaycandır. Bundan başqa, "Qazprombank" bu yaxınlarda Azərbaycanın 400 milyon dollardan artıq dəyəri olan iri sənaye layihəsini maliyyələşdirib. Göründüyü kimi, bu proseslər iki ölkə arasında qarşılıqlı səmərəli əməkdaşlığın mühüm elementləridir.

Bu səmərəli əməkdaşlıq sayəsində öllkəmizdə maşınqayırma sahəsində də mühüm addımlar atılır. Bu gün Azərbaycanda "KamAZ", "Ural" avtomobilləri buraxılır. Artıq yüzlərlə belə avtomobil konveyerlərdən düşürülüb. Ölkəmizdə "QAZ" avtomobillərinin istehsalı haqqında da razılıq əldə olunub. Bütün istiqamətlərdə çox səmərəli dinamikanın davamı iki ölkənin münasibətlərinin ruhunu, xarakterinin səviyyəsini və perspektivini aydın göstərir.

Azərbaycan-Rusiya münasibətlərinin əsasında tarixi, mədəni əlaqələrin, xalqlarının yaxınlığının durması bütün istiqamətlərdə əməkdaşlığın səmərəliliyinə imkan verən amildir. Bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər mehriban qonşuluq və qarşılıqlı hörmət prinsipləri əsasında qurulur. İki lider həmişə maraqlar balansı axtarır və onu taparaq, mənafeləri uzlaşdırırlar. Azərbaycan Prezidentinin Soçi danışıqlarının gedişində, iki dövlət arasında əlaqələrin gələcək quruculuğu üçün əlavə normativ baza yaradan bir sıra sənədləri və razılaşmaları imzalaması da bunu təsdiq edən amildir.

Hazırda Azərbaycanda Rusiyanın iştirakı ilə artıq təxminən 700 birgə şirkət fəaliyyət göstərir. Rusiya sərmayələrinin birbaşa yönəltmələrinin ümumi həcmi isə bir milyard yarım dollardan çoxdur. Bu prosesdə, yeni qarşılıqlı, səmərəli biznes əlaqələrinin qurulmasında Rusiya-Azərbaycan İşgüzar Şurasının mühüm rolu vardır. Təkcə 2017-ci il Şura ümumilikdə yarım milyard dollara yaxın məbləğlik 42 birgə layihəni dəstəkləyib. Azərbaycanda Rusiyanın energetika korporasiyaları uğurla işləyirlər. Rusiya Prezidenti bu barədə deyib: "Rosneft" şirkəti Azərbaycanın Dövlət Neft Şirkəti ilə birgə yaxın vaxtlarda "Qoşadaş" neft-qaz yatağının kəşfiyyatına və mənimsənilməsinə başlayacaq. "LUKoil" Azərbaycanın enerji layihələrinə 4 milyard dollara yaxın sərmayə qoyub. Bu barədə də burada deyildi. Bizim neftin nəqli üzrə gələcək inhisarımız olan "Transneft" Azərbaycan neftinin Bakı-Novorossiysk neft kəməri ilə ixracının etibarlı tranzitini təmin edir". Ümumiyyətlə münasibətlər daim sıxlaşır. "Avtovaz" "Lada" avtomobillərinin satışı üzrə Azərbaycanın bütün regionlarında geniş pərakəndə şəbəkə yaradır. Artıq ölkəmizdə 40-dan çox şöbə var. Azərbaycandan olan sərmayədarlardan Rusiyada kənd təsərrüfatı obyektlərinin inşasında iştirak edirlər. Məsələn, Nijeqorod vilayətində sərmayə həcmi milyard rubldan artıq olan istixana kompleksini, Krasnodar diyarında isə ərzaq məhsulları buraxılışı üzrə birgə müəssisəni nümunə göstərmək olar. Azərbaycanın kənd təsərrüfatı məhsullarına Rusiyada maraq böyükdür. 2017-ci ildə bu sahənin məhsullarının satışının 12 faiz artımı da həmin marağın göstəricisidir. Qarşılıqlı əməkdaşlıq və əlaqələrin inkişafını 30-dan çox Azərbaycan şirkətinin sentyabrın 17-dən 20-dək Moskvada Beynəlxalq Ərzaq Sərgisində iştirakı sübut edir. Siyasi, iqtisadi və sosial münasibətlərin daim yaxınlaşması qlobal əhəmiyyətli məsələlərin həllinə də töhfə verir.

Rusiya və Azərbaycan birgə transmilli infrastruktur layihələrinin, məsələn, Şimal-Cənub kimi İran, Azərbaycan və Rusiyadan keçən səmərəli beynəlxalq nəqliyyat dəhlizinin yaradılmasına imkan verən əməkdaşlıq, Avropa və Asiya iqtisadi bazarlarını yaxınlaşdırır. Hazırda bu irimiqyaslı böyük iş çərçivəsində iki ölkənin inşaatçıları Samur çayı üzərində sutkada 37 mindən çox maşın buraxmaq qabiliyyəti olan yeni körpü tikirlər.

Beləliklə, Azərbaycan-Rusiya əməkdaşlığı sayəsində mühüm beynəlxalq əhəmiyyətli layihələrin reallaşması nəinki regionda, həm də Avrasiya məkanında və dünyada çox perspektivli işbirliyinə imkanlar yaradır. Xəzər dənizinin statusu haqqında Konvensiyanın əldə olunması isə bu istiqamətdə mühüm perspektivlərə şərait yaradıb. Rusiya Prezidenti bu barədə vurğulayıb: "Xəzər dənizinin statusu haqqında Konvensiya da bizim dövlətlərimiz arasında qarşılıqlı faydalı kooperasiya üçün yeni imkanlar açıb. Sözsüz ki, bu, irəliyə doğru gedən qərardır. Sözsüz, orada hamının işləməsi, tammiqyaslı implementasiyaya nail olmaq üçün çox iş görmək lazımdır. Amma artıq mövcud sənədlərin imzalanması Xəzər regionunda əməkdaşlıq üçün bizə yaxşı baza yaradır. Ümid edirik ki, Rusiya və Azərbaycan şirkətləri Xəzər regionunda perspektivli layihələrin reallaşdırılması ilə fəal məşğul olacaqlar. İlk növbədə, nəqliyyat, yük daşımaları, neft-qaz hasilatı, ekologiya və sözsüz ki, Xəzərin bioehtiyatlarının və biomüxtəlifliyinin qorunması sahəsində". Ölkələrin maraqlarını ödəyən əməkdaşlıq təbii ki, Avrasiya məkanında iqtisadi əlaqə və inkişafa mühüm töhfələr verəcək, sülh, birgə yaşayış, humanitar münasibətlər üçün zəruri olan şəraitə də imkan yaradacaqdır.

İki ölkənin humanitar əlaqələrin inkişafı üzərində çox fəal işləməsini də bu tarixi yaxınlığın təsdiqi kimi dəyərləndirmək olar. Oktyabr ayında Bakıda Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında növbəti Humanitar Forum keçiriləcək. Bu, beynəlxalq Forumda humanitar xarakterli məsələlərin, mədəniyyətlərarası dialoqun, konfessiyalararası münasibətlərin diskussiyası artıq qlobal əhəmiyyət qazanıb və hər il dünyanın diqqəti buradakı mühüm problemlərin müzakirəsinə yönəlir. Ölkəmizdə multikulturalizm xalqımızın həyat tərzidir. Təsadüfi deyil ki, Azərbaycanda tədrisin rus dilində aparıldığı 341 məktəb, Rusiyanın aparıcı ali təhsil ocaqları olan Moskva Dövlət Universitetinin və Seçenov adına Tibb Universitetinin filialları fəaliyyət göstərir. Dövlət başçısı Rusiya ilə əlaqələrin inkişafı və perspektivi barədə deyib: "Burada Rusiya-Azərbaycan münasibətləri barədə çox danışmaq olar, sadəcə, bugünkü forumun formatına görə hamısını əhatə etmək mümkün deyil. Amma biz münasibətlərin gələcəkdə də fəal inkişafına istiqamətlənmişik. Həmçinin düşünürəm ki, bizim gələcək əməkdaşlığımız çərçivəsində gələn il üçün nəzərdə tutulan Xalq Təsərrüfatının Nailiyyətləri Sərgisində Azərbaycan pavilyonunun açılması mühüm addım olacaq. Bu tarixi bina ötən əsrin ortalarında Azərbaycan pavilyonu olub, biz onu bərpa edirik. Düşünürəm ki, biz belə mühüm beynəlxalq sərgi meydanında iştirak edəcəyik və öz nailiyyətlərimizi nümayiş etdirəcəyik. Rusiya regionları ilə də bizim çox sıx münasibətlərimiz mövcuddur. Rusiya Federasiyasının 20-yə yaxın subyektinin Azərbaycanla müvafiq razılaşmaları var. Bizim Rusiya regionlarında, eləcə də Rusiya regionlarının Azərbaycanda ticarət nümayəndəlikləri açılır. Yəni, əminəm ki, regionlararası əməkdaşlıq ölkələrimizi birləşdirən bütün dost, mehriban qonşuluq münasibətləri kompleksini üzvi surətdə tamamlayacaq".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# Vətənpərvərlik haqqında düşünərkən

**Elə həyati dəyərlər var ki, fərd və cəmiyyət olaraq onların üzərindən keçmək, bu dəyərləri ali irs kimi nəsillərdən-nəsillərə ötürməmək mümkün deyil. Çünki inkişaf səviyyəsindən asılı olmayaraq istənilən cəmiyyətin belə bir mənəvi mirasa ehtiyacı var. Toplumun ictimai əxlaqı, həyata baxışları, milli-mənəvi istinadı bu dəyərlər işığında müəyyənləşir. Həyatın, zamanın, tarixin saysız-hesabsız suallarına düzgün cavab tapmaqdan ötrü onlar ən etibarlı bələdçilərdir.**

Min illərdir ki, insan hansısa coğrafi məkanda dünyaya gəlir və doğulub böyüdüyü o torpaqları coğrafi məkandan daha yüksək anlamda qəbul edir. Min illərdir ki, insanın təfəkküründə bir Vətən anlayışı var. Bu, tarixi təkamül prosesinin, ictimai qanunauyğunluqların, bəşər övladlarının keçdikləri uzun bir inkişaf yolunun formalaşdırdığı düşüncədir.

Yer üzündə elə ucqar məskənlər var ki, oralar nə iqliminə, nə relyefinə, nə kommunikasiya imkanlarına, bir sözlə heç bir təbii göstəricisinə görə yaşayış üçün əlverişli deyildir. Amma əsrlərdir ki, bu məskənlərdə insanlar yaşayır, bütün çətinliklərə sinə gərir, nəsillər bir-birini əvəz edir. O insanlar istəsələr tək-tək və ya toplu halda, tədricən, yaxud qısa zaman içində özlərinə yeni, daha əlverişli məkanlar tapa bilərlər. Əslində dünyada yaşamaq üçün yer çoxdur. Amma o insanlar yenə də öz yurdlarını tərk etmirlər. Sadə bir səbəbə görə ki, üzərindəki buz qatı olan ilin heç bir mövsümündə əriməyən o yerlər, yaxud ilan mələyən ucsuz-bucaqsız qum səhraları bu insanların vətənidir. Əcdadları burada yaşayıb. Bütün dəyərləri bu məkanlarda formalaşıb. Və bu insanların indi o yerlərdən uzaqlaşması onların öz milli kimliklərindən uzaq düşüb tamam başqa bir topluma çevrilməsi demək olar.

Vətənpərvərlik insanın həyat uğrunda mübarizə hissidir. Fədakarlıq, qəhrəmanlıq, məğlubedilməzlik duyğularının formalaşmasında bu hiss çox böyük rol oynayır. İnsanda özünəinamı gücləndirir.

Bügünkü qloballaşan dünyamızda, çoxmədəniyyətliliyin əsas sosiokültür istiqamətinə çevrildiyi cəmiyyətlərdə vətənpərvərlik kimi anlayışlar, bəlkə də artıq sosioloji "rudiment" olaraq görünməkdədir. Qloballaşma proseslərinin Vətən, dövlət düşüncəsinə, xalqların milli-mənəvi dəyərlərinə qarşı ziyanlı təsirlərinin hər birimiz fərqindəyik. Bu qeyri-iradi prosesin son hədəfi vətənsiz, dövlətsiz, sərhədsiz bir dünya yaratmaqdır. Milli kimliyi, tapındığı dəyərləri bəlli olmayan amorf bir insan kütləsi formalaşdırmaqdır. Bəs belə bir toplum, belə bir dünyada necə yaşayacaq, bəşər sivilizasiyası bu cür şərtlər altında öz inkişaf yoluna necə davam edəcək, bu proseslər dünyanı yeni tərəqqi dönəmlərinə, yoxsa məhvə aparacaq?! Bu suallara, əfsus ki, hələ dürüst bir cavab yoxdur.

Belə bir dünyada Azərbaycan kimi etnosiyasi mədəniyyətləri fərqləndirib ona özünəməxsusluq verən əsas xüsusiyyət isə vətənpərvərlik hisslərinin məhz kütləvi miqyas da milli qayəyə, milli iradəyə çevrilməsidir.

Bu günlərdə, daha dəqiqi sentyabrın 15-də - paytaxtımızda Bakının Qafqaz İslam Ordusu tərəfindən bolşevik-daşnak işğalından azad olunmasının 100 illiyinə həsr edilmiş parad keçirildi. Bakı paradı Azərbaycan və Türkiyənin sarsılmaz qardaşlığı timsalında türk birliyinin öndəri olan lider ölkələrin qüdrətini və gücünü dünyaya nümayiş etdirdi. 100 il əvvəl Bakı şəhərinin siyasi tarixində ilk dəfə respublikamızın paytaxtı statusunu almasında Qafqaz İslam Ordusu və Azərbaycan milli ordu birləşmələrinin fədakar əməyini müasir bəşəriyyətə xatırlatdı. Bu hərbi parad bir əsr əvvəl olduğu kimi bu gün də bir yerdə addımlayan bir ananın iki övladının düşmənə qarşı mübarizliyinin, əzmkarlığının, tarixən hər zaman bütün siyasi təlatümlərdən şərəflə, üzüağ çıxaraq qürurverici duruşunun və şahanə görkəminin müasir obrazını cəmiyyətə təqdim etdi.

Tarixə qızıl hərflərlə həkk olunmuş 15 sentyabr Azərbaycanın şərəf tarixidir, zəfər bayramıdır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın vurğuladığı kimi bir əsr əvvəl Bakı uğrunda aparılan mübarizə bizim qardaşlığımızın, dostluğumuzun, birlik və bərabərliyimizin rəmzidir: "Tarixi bilmədən, bir əsr əvvəl Nuru Paşanın və əsgərlərinin minlərlə kilometr uzaqdan Bakıya və Gəncəyə gəlmələrinin səbəblərini dərk etmədən Azadlıq meydanındakı bu həmrəylik mənzərəsinin mənasını anlaya bilmərik".

Bu möhtəşəm tədbiri izlədikcə qəlbim Vətənimin, xalqımın, dövlətimin istiqbalından hədsiz qürur hissi ilə doldu. Bu, elə bir duyğudur ki, insan onun mahiyyətini özü-özünə belə izah edə bilmir. O anlarda bütün varlığım ancaq güclü ölkə, qüdrətli lider, ürəyi torpaq sevgisi ilə çırpınan əsgər, məğlubedilməz dövlət haqqında düşüncələrdən ibarət idi.

Bu hərbi parad Azərbaycan xalqına, xüsusən də ölkə gəncliyinə bir xitab idi. Bu hərbi parad indiyə qədər paytaxtımızda keçirilmiş möhtəşəm hərbi tədbirlərdən bir sıra mühüm nüansları ilə seçildi. Dünyaya, Dağlıq Qarabağ düyününün indiyə qədər açılmamış qalmasına görə tarixi məsuliyyət daşıyn bir sıra böyük dövlətlərə, ən əsası isə düşmən Ermənistana lazımi ismarıcları çatdırdı. Necə ki, 15 sentyabr 1918-ci il günü Azərbaycan tarixinə Bakının Qafqaz İslam Ordusu tərəfindən daşnak-ingilis qüvvələrindən təmizlənməsi günü kimi düşmüşdü, 15 sentyabr 2018-ci il paradı da Türkiyə-Azərbaycan vəhdətinin simvolu kimi yeni bir tarixə döndü.

İki qardaş ölkənin dövlət rəhbərlərinin - Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çiyin-çiyinə qəbul etdikləri bu möhtəşəm parad Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını vurğuladı. Bütün aləmə göstərdi ki, Yer üzündə bir-birinə bu qədər yaxın, doğma olan başqa dövlətlər yoxdur. Və bu qardaşlıq təsadüfən yaranmayıb, keçici deyil, müasir dövrün siyasi maraqlarından irəli gələrək ortaya çıxmayıb. Azərbaycan-Türkiyə qardaşlığının təməlinə müqəddəs şəhid qanı çilənib. Ona görə bu qədər möhkəmdir, mətindir, sarsılmazdır.

Bu parad həm də bir dövlətçilik dərsi oldu. Müstəqilliyin ilk illərinin çətin və əzablı günlərindən bəri Azərbaycanın qət etdiyi şərəfli yolun uğurlarını zamanın aynasında aydın şəkildə əks etdirdi. Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin hələ o illərdə ölkənin və xalqın gələcəyi üçün seçdiyi yolun düzgünlüyünü, alternativsizliyini bir daha təsdiqləmiş oldu.

**Əzəmətli türk və Azərbaycan əsgərlərinin nümunəvi hərbi paradı mənə Milli Ordumuzun 2 il əvvəlki rəşadətini - 2016-cı ilin məlum aprel döyüşlərini xatırlatdı. Aprelin 1-dən 5-dək davam edən çevik və mütəşəkkil hərbi əməliyyatlarla düşmənin bir sıra mövqelərini ələ keçirən, hərbi obyektlərini darmadağın edən, bir sıra yaşayış məntəqələrini işğaldan azad edən Silahlı Qüvvələrimizin əzm və rəşadəti uzun illərdir ki, bu anı gözləyən xalqımızın hədsiz sevincinə, vətənpərvərlik və milli qürur hisslərinin alovlanmasına səbəb oldu!**

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin siyasi iradəsini və qətiyyətini, habelə xalqımızın böyük dəstəyini hiss edən Silahlı Qüvvələrimiz son illərin ilk irimiqyaslı hərbi əməliyyatlarında yüksək taktiki və strateji hazırlıq səviyyəsi, qələbə əhval-ruhiyyəsi, ən başlıcası işğal altında olan torpaqlarımızı azad etmək əzmi nümayiş etdirərək daha bir sınaqdan üzüağ çıxdı. Azərbaycan Ordusunun qısa zamanda həyata keçirdiyi uğurlu hücum əməliyyatları - düşmənin çoxlu sayda canlı qüvvəsinin və zirehli texnikasının, habelə strateji əhəmiyyətli hərbi bazalarının güclü atəş zərbəsi ilə məhv edilməsi, strateji əhəmiyyətli ərazilərimizin geri qaytarılması xalqımızın böyük coşqusu, sevinci və mənəvi dəstəyi ilə qarşılandı.**

**Qoşunların təmas xəttindəki uğurlu əməliyyatlarımız bir sıra reallıqları da üzə çıxardı. İlk növbədə məlum oldu ki, Azərbaycanın xalqının milli maraqlarını daim önə çəkən, mürəkkəb geosiyasi məkanda qətiyyətli, düzgün qərarlar qəbul etmək cəsarəti ilə seçilən lideri, rəhbəri var!**



**Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın aprel döyüşlərində qəhrəmancasına şəhid olmuş Vətən oğullarının anaları ilə görüşməsi, onların dərin kədərini, ağrı-acısını bölüşməsi, başsağlığı və təsəlli verməsi də milli vətənpərvərlik ruhunun güclənməsinə xidmət edən addım idi.**

Sonrakı mərhələdə Mehriban xanım Əliyeva 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabiti ilə görüşərək demişdir: ***"Aprel hadisələri Azərbaycan dövlətinin qüdrətini, Azərbaycan xalqının birliyini göstərdi. Azərbaycan Ordusu bu gün qüdrətli, lazımi müasir silah və texnika ilə tam təmin olunmuş ordudur. Azərbaycan əsgərləri yüksək peşəkarlıq, vətənpərvərlik, qəhrəmanlıq göstərərək işğal altında olan torpaqların bir qismini azad etdilər.***

***Aprel döyüşləri zamanı bizim itkilərimiz oldu. Bu itkilər bizim hamımız, hər bir azərbaycanlı üçün böyük dərddir. Azərbaycan gəncləri, əsgərlərimiz, zabitlərimiz Vətən yolunda qəhrəmanlıq göstərərək şəhid oldular, ömürlərini qurban verdilər. Övladını itirmək hər bir valideyn üçün ən böyük faciədir. Heç bir xalq istəməz ki, müharibə olsun. Heç bir ana istəməz ki, oğullar itirsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların əziz xatirəsi Azərbaycan xalqının ürəyində daim yaşayacaq".***

Düşünürəm ki, Azərbaycan istəmədən müharibəyə cəlb edilmiş ölkədir. Xalq olaraq biz hər zaman müharibəni deyil, sülhü seçmişik. Və bu, tarixin ən düzgün, ağıllı seçimi olub. Çünki indiki dünyamız, onun inkişaf mənzərələri saysız-hesabsız müharibələrin, qırğınların, insan faciələrinin deyil, bu müharibələrin sonunda əldə olunmuş sülh razılaşmalarının, insanın qara torpağın köksündə yaratdığı abadlıqların, tikib-qurduqlarının əsəridir.

İndi muzeylərdə saxlanan eksponatları, silah-əslərhələri, məhdud sayda nişanələri hesaba almasaq, hələ bu günə qədər müharibələrədən acı xatirələrdən başqa maddi olan heç nə qalmayıb. Sülhdən isə bəşəriyyətə getdikcə inkişaf edən, elmin gücü hesabına yeni möcüzələr yaradan bütöv bir dünya qalıb. Ona görə Azərbaycan əcdadlarımızın sülhsevərlik ənənələrini davam etdirərək bu gün də sülhdən yanadır. Regionda sülhün, sabitliyin, inkişaf mühitinin qorunmasında maraqlıdır. Bu məqsədə xidmət edən bir çox qlobal iqtisadi layihələrin müəllifi, təşəbbüskarıdır. İstəmədən müharibəyə cəlb olunmaq, öz resurslarının əhəmiyyətli bir hissəsini hərbi sahəyə sərf etmək məcburiyyətində qalmaq, ən əsası isə ən qiymətli sərvət olan insanın düşmən gülləsindən itkisi ağrısını yaşamaq, şəhidlər vermək dövlətimizin sülhsevər siyasəti ilə daban-dabana ziddir.

Fəqət, bizdən asılı olmayan reallıqlar da var. 30 ildən bəri hər birimizə mənəvi əziyyət verən reallıqlarsa ondan ibarətdir ki, bədnam qonşumuz havadarlarının əli ilə torpaqlarımızın 20 faizini işğal edib. Ermənilər Azərbaycan xalqına qarşı Xocalı soyqırımı kimi bəşəri cinayət işlədib. Bir milyondan artıq soydaşımız yurd-yuvasından perik düşüb. İnsan əlinin sığalına, kotana, toxuma, əkin-biçinə həsrət o torpaqlar, kol-kos basmış o yollar illərdir ki, bizim qayıdışımızı gözləyir. Əlbəttə, problemin sülh yolu ilə həlli ümidləri hələ bitməyib. Amma o torpaqlara böyük qayıdışın başlanması üçün ən böyük ümid Azərbaycan əsgərinədir. Azərbaycan Silahlı Qüvvələrinin getdikcə artan hərbi qüdrətinədir.

Hər bir dövlətin qüdrətini onun Silahlı Qüvvələri yaradır. İllər əvvəl belə bir ordumuzun olmaması torpaqlarımızın işğalı ilə nəticələndi. Bu günsə Azərbaycan nələrə qadir olduğunu 2016-cı ilin aprel döyüşləri zamanı sübuta yetirən güclü bir orduya malikdir.

Dünya ölkələrinin ordularının reytinqlərini müəyyən edən "Global Firepower" adlı bir təşkilat var. Bu qurum hər il müvafiq araşdırmalara əsasən, ayrı-ayrı ölkələrin hərbi reytinqlərini elan edir. GFP məlumat bazasının məqsədi dünya silahlı qüvvələri haqqında informasiya toplamaq, təhlil və çıxarışlar etməkdir. "Global Firepower Index" reytinqi dünyada ən məşhur və nüfuzlu reytinq hesab edilir. Təşkilatın son araşdırmalarına əsasən, Azərbaycan hərbi gücünə görə dünya reytinqində 2017-ci illə müqayisədə beş pillə irəliləyərək, 53-cü mövqedə qərarlaşıb. Ermənistan reytinq cədvəlində 84-cü, Gürcüstan 82-ci yerdə gəlir.

İlk onluqda isə ABŞ, Rusiya, Çin, Hindistan, Fransa, Böyük Britaniya, Cənubi Koreya, Yaponiya, Türkiyə və Almaniya orduları yer alıb. Bu məlumat da Azərbaycan Silahlı Qüvvələrinin regionun ən qüdrətli ordusu olmasına dəlalət edir. Ölkəmiz 2018-ci ilin dövlət büdcəsində müdafiə xərclərinə 2,739 milyard manat və ya 1,611 milyard ABŞ dolları ayırıb. Azərbaycanın müdafiə məqsədləri xərcləri Ermənistanla müqayisədə təxminən 3 dəfə yüksəkdir. Lakin əsas məsələ, təbii ki, silahların, "dəmir əzələlər"in deyil, insanların, bəsirətin, reallığın, ədalətin, diplomatiyanın dialoqudur. Diplomatiya səngərində də qalib görünən tərəf məhz Azərbaycandır. Çünki bu qarşılaşmada bizi təcrübəli dövlət xadimi, peşəkar diplomat, qəlbi Azərbaycan sevgisi ilə dolu vətənpərvər - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev təmsil edir. O, Azərbaycanın haqq davasını beynəlxalq aləmdə hamı tərəfindən qəbul edilmiş qaydalara uyğun aparır. Çünki haqq-ədalət, beynəlxalq hüquq normaları əzəldən bizim tərəfimizdədir.

Ordumuzun gücü, Azərbaycanın getdikcə yüksələn hərbi qüdrəti diplomatik dialoqlarda bizim üstünlüyümüzdür. Bütün dünya şahiddir ki, Azərbaycanı sülh danışıqlarına sövq edən yeganə amil sülh prinsiplərinə sadiqlikdir. Dağlıq Qarabağ müşkülünü insan itkilərinə yol vermədən həll etmək arzusudur. Regionda təhlükəsizliyi, inkişaf proseslərini qorumaq istəyidir. İşğalçıları torpaqlarımızdan birdəfəlik rədd etməkdən ötrü Azərbaycan Silahlı Qüvvələrinə döyüş əmri isə son variant kimi hər zaman öz aktuallığını qoruyur.

Azərbaycan Prezidentinin müharibə perspektivi ilə bağlı söylədikləri bəzi siyasətçilərin "ura patriotçulugundan", müharibə ritorikasından çox-çox uzaqdır. Bütün bunlar aydın məntiqə, ağıllı hesablamalara, beynəlxalq təcrübəyə, müasir polittexnologiyalara və arifanə diplomatik gedişlərə hesablanıb. Bütün bu incəliklərə cənab İlham Əliyev yaxşı bələddir. O, qeyd etdiyimiz kimi peşəkar diplomatdır. Dünyanın ən nüfuzlu diplomatiya məktəblərindən olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib. Heydər Əliyev kimi dövlətçilik ustadının ətrafında yetişib, püxtələşib. Üstəlik, 2003-cü ildən bəri Azərbaycan kimi mürəkkəb coğrafiyada yerləşən, beynəlxalq güclərin marağında olan bir dövlətə rəhbərlik edib, ona tarixinin ən böyük nailiyyətlərini qazandırmaq təcrübəsinə malikdir.

Azərbaycan Prezidentinin bütün məsələlərlə bağlı öz sözü, öz baxışları var. O, istənilən münasibətində bir amilə istinad edir: Azərbaycan xalqının, dövlətinin milli maraqları.

Zaman cənab İlham Əliyevin necə vətənpərvər Prezident olduğunu göstərir. O, heç bir beynəlxalq gücə boyun əymədən, xarici təzyiqlər qarşısında müvazinətini itirmədən xalqımızı milli hədəflərə doğru aparmaqda əzmlidir, qətiyyətlidir.

Cənab İlham Əliyevi öz mövqeyindən çəkindirmək mümkün deyil. Çünki hər zaman vətəndaşlarımızın dəstəyini hiss edir, xalqın sarsılmaz gücünə söykənir. Ona görə də sözünün üstündə durmağı bacarır. Onun dilə gətirdiyi sözlər, arxasında reallıq dayanmayan, insanların emosional hisslərinə hesablanmış gəlişigözəl sözlər deyil. Belə bir tərz Azərbaycan Prezidentinə yaddır. O, bəlağətli cümlələr qurmur. Reallıq hissini heç vaxt itirmir. Və həyata keçirilən siyasətin səmərəliliyini, effektivliyini də real nəticələrə əsasən qiymətləndirir. Onun üçün siyasət vətəndaşlar üçün nəsə faydalı, real bir nəticə ortaya qoymaq, cəmiyyətə, dünyaya faydalı olmaqdır.

"Əsl siyasət - real, konkret iş görməkdən ibarətdir!" tezisi cənab İlham Əliyevin ümumən dövlətçilik fəlsəfəsinin cövhərinə çevrilib!

Bir vaxtlar Heydər Əliyev böyük zəhmət bahasına Azərbaycanda yeni neft erasını başlatdı. Bu milli sərvətimizi milli inkişafın əsas lokomotivinə çevirməyi bacardı. Cənab İlham Əliyev isə neft amilini xalqın rifahına, ölkənin inkişafına, dövlətin təhlükəsizliyinə yönəltdi. Azərbaycanın təşəbbüskarı və əsas iştirakçısı olduğu irimiqyaslı enerji-kommunikasiya layihələrinin qlobal iqtisadi və geosiyasi əhəmiyyəti ölkəmizə böyük beynəlxalq nüfuz qazandırdı. Hər kəs bu gün Avropa regionunun enerji təhlükəsizliyinin əsas təminatçılarından olan, ölkələri bir-birinə qovuşduran yolların mərkəzində qərar tutmuş Azərbaycanla fərqli statusda, fərqli tövrdə davranmağa başladı.

Cənab İlham Əliyev cəmiyyətimizdə Vətənin nailiyyətləri ruhunda formalaşan, məğrur, qürurlu, fədakar, yardımsevər, intellektual bir gənc nəsil yetişdirdi. Öz ailəsi, övladları, onların nümunəvi davranışları, təvazökar həyat tərzi, insani dəyərlər aşılayan fəaliyyəti ilə cəmiyyətə parlaq bir nümunə göstərdi.

15 sentyabr paradının səhəri günü kütləvi informasiya vasitələrində yayılan kadrlar digər bir maraqlı faktı əks etdirdi. Məlum oldu ki, Azərbaycan Prezidentinin hərbi xidmət yaşına çatmış öz oğlu, ulu öndərin adını yaşadan Heydər Əliyev də əsgərliyə yollanıb. O, Vətən qarşısındakı borcunu özü kimi yüksək fiziki hazırlığa, mənəvi-psixoloji yetkinliyə malik gənclərimizin cəlb olunduğu Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi hissəsində yerinə yetirir.

Prezident cənab İlham Əliyev və ailə üzvləri övladları həmin hərbi hissənin gənc əsgərləri sırasında olan digər adi vətəndaşlarla birgə andiçmə mərasimində iştirak etdilər. Cənab İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva öz nümunələrində necə layiqli övlad, cəmiyyət üçün necə layiqli vətəndaş tərbiyə etməyin örnəyini qoydular ortaya. Prezident oğlunun çöhrəsindəki məsumiyyət, əynindəki əsgər paltarından, başındakı zoğalı beretdən, əlindəki silahdan gözlərinə köçmüş qürur və fəxarət hissi, digər əsgərlərlə bir sırada qətiyyətli addımları onun hansı düşüncəyə, necə yüksək mənəvi-əxlaqi dəyərlərə, Azərbaycana sevgi dolu bir qəlbə malik olmasını əks etdirirdi. Bu məsumiyyət bütün cəmiyyət üçün bir nümunə idi.

Prezidentin övladları buna qədər də gənclərimizə örnək olublar. Belə mövzulara həmişə xüsusi maraq və həssaslıq göstərən cəmiyyət gənc Heydər Əliyevin də, bacıları Leyla və Arzu Əliyevaların da daim xoş soraqlarını eşidib.

**Leyla Əliyevanın Heydər Əliyev Fondunun vitse-prezidenti, müxtəlif ictimai qurumların rəhbəri, ayrı-ayrı humanitar təşəbbüslərin müəllifi kimi Azərbaycanda və dünyada gördüyü işlər hər kəsə məlumdur. Azərbaycanın müasir gəncliyinin ən layiqli, vətənpərvər təmsilçisi kimi bu missiyanı üzərinə götürmüş Leyla Əliyeva Moskva filialına da yüksək səviyyədə rəhbərlik edir. Bu da təsadüfi deyildir ki, Azərbaycan diasporunun formalaşmasındakı xidmətlərinə görə Leyla xanım Əliyeva Azərbaycan Prezidentinin 5 iyul 2011-cu il tarixli sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub.**

**İslam Konfransı Təşkilatının gənclər forumu ilə birgə "Xocalıya ədalət" Beynəlxalq kampaniyasına start verilməsi də Fondun Moskva filialının fəaliyyəti ilə bağlıdır. Tunisdə İSESCO-nun Baş Assambleyasının 10-cu sessiyasında imzalanmış protokol "Xocalıya ədalət" Beynəlxalq Məlumat Təşviqat kampaniyasına dəstək verilməsi və dünya miqyasında təhsil, elm və mədəniyyət sahələrində birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Aksiyanın əsas məqsədi beynəlxalq birliyi Xocalı faciəsi haqda ədalətli məlumatlandırmaqdır.**

Dövlət rəhbərimizin digər övladı Arzu Əliyeva isə ideya müəllifi olduğu, araya-ərsəyə gətirilməsinə dəstək verdiyi sənədli filmlərlə tariximizin qaranlıq səhifələrinə işıq salır, təşəbbüskarı olduğu layihələrlə Vətənə fayda verir.

Bütün bunlar əsl vətənpərvərlikdir.

Vəzifə kürsüsünü, yüksək statusu, maddi imkanları görüb havalara uçan, təkəbbürdən gözləri ayaqlarının altını görməyən, adları bədnam əməllərdə hallanan, yüksək mənsəbli insanlara, onların ailə üzvlərinə təvazökarlıq tövsiyələrindən, xəbərdarlıqlarından vaxtında nəticə çıxarmayaraq sonda Prezidentimizin ciddi cəzaları ilə üzləşən bir çox məmur, biznesmen övladları bundan ibrət dərsi almalıdırlar.

Belələrinə bir sual ünvanlamaq istərdim: məgər Heydər Əliyev Avropanın, Amerikanın ən nüfuzlu ali məktəblərində təhsil ala bilməzdimi? Alardı! Özü də bəzi məmur uşaqları kimi 4-5 illik təhsili 8-10 ilə başa vurmazdı. Bu universitetlərdə də zəkasına görə barmaqla göstərilən tələbələrdən olardı. Amma o, Azərbaycanı seçdi. Bu ölkədə təhsil almağı üstün tutdu. Bununla göstərdi ki, Azərbaycanda da xarici ölkələrin nüfuzlu ali məktəbləri ilə rəqabət aparmaq gücündə olan ADA Universiteti kimi qabaqcıl ali məktəblər var. Bu ali məktəblərdə də yüksək fərdi inkişafa nail olmaq, peşəkar mütəxəssis kimi yetişmək olar.

Bütün bunlar həm də bir Ana tərbiyəsidir. Mehriban xanım Əliyevanın daşıdığı digər yüksək ictimai-siyasi statuslarla bir arada Ana missiyasını da necə nümunəvi tərzdə yerinə yetirdiyini, bir Ana kimi də necə mükəmməl örnək yaratdığını, Vətənə necə yararlı, faydalı övladlar bəxş etdiyini yetişdirdiyi övladların simasında, mənəvi tərbiyəsində əks etdirən anadır.

Heydər Əliyev and içəndə, əsgəri addımlarla ötüb keçəndə onun gözlərində qürur və sevinc göz yaşı əks olunmuşdu. Mehriban xanım Vətən üçün ən qiymətli əsərinə baxıb fəxr edirdi. Təkcə Əliyevlər ailəsi üçün deyil, Azərbaycan üçün layiqli bir övlad, oğul, əsgər yetişdirə bildiyinə görə sevinirdi.

Biz də anayıq. Bu, bizə də tanış hisslərdir. Bunun necə təkrarsız, şirin, izahedilməz bir duyğu olduğunu yaxşı bilirik. Əsgər paltarında, əldə silah sırada öz yerini almış gənc əsgər Heydər Əliyev nümunəsindən göründü ki, Vətən torpağını düşmən tapdağından azad etmək üçün Ali Baş Komandanın hücum əmrini hamıdan birinci elə əsgər Heydər Əliyev gözləyir.

Hakimiyyətdə qalmaq naminə öz övladını, ailəsini alver predmetinə çevirən və oğlunu guya hərbi xidmət adı altında əslində beşulduz otellərdə istirahətə yollayan Ermənistanın baş naziri N.Paşinyanın populist piar səs-küyündən fərqli olaraq Heydər Əliyevin əsgəri xidmətində hər hansı təbliğat elementi yoxdur. Azərbaycanda Prezident övladının əsgəri xidmətə başlaması Vətən qarşısında bir borcdur və Heydər Əliyev igid bir Azərbaycan əsgəri kimi bu borcunu şərəflə yerinə yetirir.

**N.Paşinyan kimi populistlər də, özünü azərbaycanlı saya-saya onun səsinə səs verib bu mövzuda manipulyasiya edərək düşmən dəyirmanına su tökən bədxahlar da bunun fərqində olmalıdırlar. Eyni zamanda, övladlarını min bir üsulla hərbi xidmətdən yayındırmağa cəhd göstərən məmurlar da, iş adamları da, özünü müxalifət lideri adlandıraraq danışanda ağzına çullu dovşan sığmayan, amma reallığa gələndə oğlunu xaricdə hərbi xidmətdən kənarda saxlayan kəslər də Prezident övladının yaratdığı nümunədən ibrət götürməlidirlər.**

**Aytən MUSTAFAZADƏ,**
**AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun direktoru, professor, Milli Məclisin deputatı.**

# Şamaxı Astrofizika Rəsədxanasında BDU və AMEA-nın birgə səyyar iclası keçirilib

*Akademik Abel Məhərrəmov iclasda Azərbaycanda innovativ elmi istiqamət olan nanotexnologiya sahəsində aparılan tədqiqatlar, nəticələr və perspektivlərdən danışıb*





**Oktyabrın 3-də Şamaxı Astrofizika Rəsədxanasında Bakı Dövlət Universiteti (BDU) Elmi Şurasının və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin birgə səyyar iclası keçirilib. AMEA-nın prezidenti, akademik Akif Əlizadə tədbir iştirakçılarını iclasın gündəliyi ilə tanış edib. Sonra Akif Əlizadə akademik Sudeif İmamverdiyevə Azərbaycan Respublikasının "Şərəf" ordenini təqdim edib.**



BDU-da nanotexnologiya sahəsində yeni tədris proqramları, dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar hazırlanıb

AZƏRTAC xəbər verir ki, iclasda BDU-nun rektoru, akademik Abel Məhərrəmov "Azərbaycanda nanotexnologiya sahəsində aparılan tədqiqatlar, nəticələr və perspektivlər" mövzusunda elmi məruzə ilə çıxış edib. O, Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncamını xatırladaraq, AMEA-nın yubileylə bağlı tədbirlər planını təsdiq etdiyini və məruzəsinin yubiley ərəfəsində hesabat olduğunu diqqətə çatdırıb.

Prezident İlham Əliyevin 2004-cü il oktyabrın 4-də Rumıniyaya rəsmi səfəri zamanı iki ölkənin universitetləri arasında nanotexnologiya istiqamətində müqavilə imzalandığını deyən akademik Abel Məhərrəmov, dövlətimizin başçısının göstərişinə əsasən bir il sonra BDU-da Nano Araşdırmalar Mərkəzinin, ardınca "Nanomaterialların kimyəvi fizikası" kafedrasının yaradıldığını və dünya elminin bu prioritet istiqaməti üzrə tədqiqatlara başlandığını diqqətə çatdırıb. Qeyd olunub ki, qısa müddətdən sonra bu elmin əsasları universitetin fizika, kimya, biologiya fakültələrinin bakalavr pilləsində tədris edilməyə başlayıb. Eyni zamanda, nanohissəciklərin fizikası, nanomaterialların fiziki kimyası və nanobiotexnologiya ixtisaslaşmalarında magistr hazırlığı aparılıb. Qısa müddətdə bu istiqamətdə kimya və fizika fakültəsindən 12 nəfər fəlsəfə doktoru elmi dərəcəsi üzrə dissertasiya müdafiə edib.

Akademik bildirib ki, nanotexnologiya sahəsində yeni tədris proqramları, dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar hazırlanıb, hətta bəzi dərsliklər ABŞ-ın və Rusiyanın məşhur nəşriyyatlarında və universitetlərində çap edilib.

BDU-da nanotexnologiya sahəsində bir sıra inkişaf etmiş ölkələrlə tətbiqi xarakterli birgə tədqiqatlar aparılır

Nanotexnologiyanın tətbiq sahələrinin çox böyük diapazonda yerləşdiyinə diqqət çəkən akademik Abel Məhərrəmov BDU-da nanotexnologiyanın texnika, tibb, neft, ekologiya, kənd təsərrüfatı sahəsi və hərbi sənaye istiqamətində araşdırmalarına diqqət çəkib və bunun üçün dəyəri milyonlarla ölçülən cihaz və avadanlıq alındığını söyləyib. Qeyd olunub ki, BDU-da nanotexnologiya sahəsində dünyanın bir sıra inkişaf etmiş ölkələri ilə tətbiqi xarakterli birgə tədqiqatlar aparılır və ABŞ, Rusiya, Yaponiya, İsveçrə, Kanada, İspaniya, İtaliyanın müvafiq universitetləri, bu sahədə olan araşdırma mərkəzləri ilə ümumi dəyəri 8,5 milyon dollar olan qrant layihələri uğurla yerinə yetirilib. Nəticə olaraq 2017-ci ildə "Web of Science" sisteminə daxil olan jurnallarda universitet alimlərinin 247 məqaləsi dərc edilib ki, bu məqalələrdən 37-si nanotədqiqatlar sahəsini əhatə edir.

Nanotexnologiya sahəsində multidissiplinar tədqiqatların davam etdirilməsinin məqsədəuyğunluğu

Məruzə dinlənildikdən sonra AMEA-nın vitse-prezidentləri, akademiklər İbrahim Quliyev, Dilqəm Tağıyev və İradə Hüseynova, AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyev, Təhsil Nazirliyinin elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Yaqub Piriyev, AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov, AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibi, akademik Nazim Məmmədov, akademik Vasif Babazadə və digərləri mövzu ilə bağlı fikirlərini bölüşüblər. Onlar bu elmi istiqamətin dünya elminin prioritet sahələrindən biri kimi əhəmiyyətindən danışıb, respublikada bu istiqamətdə tədqiqatların məqsədəuyğunluğu və vacibliyini qeyd ediblər. Eyni zamanda, respublikada nanomateriallar sahəsində aparılan tədqiqatların əlaqələndirilməsi və elmi araşdırmaların hazırkı vəziyyətini müəyyənləşdirilməsi məqsədilə AMEA, BDU və bu istiqamətdə tədqiqat aparan digər strukturlarla birlikdə dövlət qurumlarına təqdim etmək üçün meqalayihənin hazırlanması qərara alınıb. Qərara əsasən akademik Abel Məhərrəmovun təqdim etdiyi məruzə bəyənilib və innovativ elm sahəsi olan nanotexnologiyanın əhəmiyyətini nəzərə alaraq, aparılan multidissiplinar tədqiqatların davam etdirilməsi məqsədəuyğun hesab olunub. Həmçinin qərarda respublikada nanomateriallar sahəsində aparılan tədqiqatların əlaqələndirilməsi və elmi araşdırmaların hazırkı vəziyyətini müəyyənləşdirmək məqsədilə AMEA, BDU və bu istiqamətdə tədqiqat aparan digər müəssisələrlə prioritet istiqamətlər üzrə müştərək meqalayihənin hazırlanması üçün işçi qrupun yaradılması yer alıb.

Tədbirdə müzakirəyə çıxarılan ilk elmi-təşkilati məsələ AMEA-nın elmi müəssisələrində 2018-ci ildə aparılmış tədqiqat işlərinin yekunlarına dair hesabatlarla bağlı olub. Akademik Akif Əlizadə hesabatların işlənməsi üçün metodiki təlimatın hazırlandığını vurğulayaraq, hesabatların müəyyən olunmuş formalarda Rəyasət Heyəti aparatının müvafiq idarə və şöbələrinə təqdim etməyi tapşırıb.

Gündəlikdə yer alan növbəti məsələ AMEA-nın "Xızı" Kənd Təsərrüfatı İstehsalat Kompleksinin torpaq sahəsindən səmərəli istifadə edilməsi haqqında olub. Rəyasət Heyəti məsələ ilə bağlı müzakirə aparıb. AMEA-nın bağçılıq-bostançılıqla məşğul olmaq istəyən əməkdaşlarına müvəqqəti istifadə üçün torpaq sahələrinin ayrılması məqsədəuyğun hesab edilib. Bununla bağlı təkliflərə baxılması üçün komissiya yaradılıb.

Digər qərarla AMEA Rəyasət Heyəti və AMEA Azad Həmkarlar İttifaqının Rəyasət Heyəti arasında 2018-2020-ci illər üzrə kollektiv Saziş təsdiq edilib.

BDU-nun astrofizika kafedrasının Şamaxı Astrofizika Rəsədxanasında filialı açılıb

İclasda, həmçinin AMEA əməkdaşlarının sosial təminatının yaxşılaşdırılması istiqamətində fəaliyyətin tərkib hissəsi olaraq onların istirahətinin səmərəli təşkili üçün binalardan istifadə edilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi qərara alınıb.

Rəyasət Heyəti AMEA-nın magistrant və doktorantlarının tədris müddəti ərzində yaşayış yeri ilə təmin edilməsi və bu istiqamətdə təşkilati məsələlərin həlli məqsədilə də tapşırıq verib.

Bundan əlavə, qərarla AMEA-nın Neft və Qaz İnstitutu, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun strukturunda qismən dəyişiklik edilib. Həmçinin AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda İmmunofiziologiya və eksperimental transplantologiya laboratoriyası yaradılıb.

Rəyasət Heyəti AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun nəzdində Antropologiya Mərkəzinin yaradılması məsələsini müzakirə edərək təsdiq edib.

Daha sonra kadr məsələlərinə baxılıb.

Sonda Bakı Dövlət Universiteti astrofizika kafedrasının Şamaxı Astrofizika Rəsədxanasında filialı və rəsədxana ərazisində akademiyanın əməkdaşlarının asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət mərkəzi açılıb.

**AZƏRTAC**





*Pərviz ŞAHBAZOV:*

# 2030-cu ilədək Azərbaycanda bərpaolunan enerji mənbələrinin ümumi həcmi 30 faizə çatacaq

**Moskvada "Rusiya energetika həftəsi" beynəlxalq forumu açılıb. Forumun gedişində Azərbaycanın energetika naziri Pərviz Şahbazov iştirak edir.**

AZƏRTAC xəbər verir ki, nazirlərin iştirak etdiyi "Yanacaq-energetika kompleksinin səmərəli tənzimlənməsi: ümumi yanaşma və ölkələrin fərqi" mövzusunda təşkil olunan sessiyada çıxış edən P.Şahbazov Azərbaycanın son illər dinamik inkişaf etdiyini, 15 il ərzində ölkə iqtisadiyyatının 3,5 dəfədən çox artdığını bildirib. Ölkə iqtisadiyyatına 250 milyard dollardan çox sərmayə qoyulub. Bunların yarısı birbaşa xarici investisiyalardır, 95 milyard dollar neft-qaz sahəsinə sərmayə yatırılıb.

Nazir deyib: "Biz enerji ehtiyatlarımızın çatdırılma marşrutunu ciddi şaxələndirmişik. Bizim bu sahədə sonuncu nailiyyətimiz dünyada ən iri qaz layihələrindən biri, 3500 kilometr uzunluğunda "Cənub Qaz Dəhlizi" layihəsidir. Bu boru kəməri vasitəsilə biz artıq qonşularımız Gürcüstan və Türkiyəyə qaz çatdırırıq, daha sonra Avropaya nəql edəcəyik. İlkin mərhələdə 16 milyard kubmetr qaz tədarük ediləcək".



Ölkədə bərpaolunan enerji mənbələrindən danışan nazir qeyd edib ki, 2030-cu ilədək Azərbaycanda bərpaolunan mənbələrin ümumi həcmi 30 faizə çatacaq. "Bundan ötrü güclü potensial mövcuddur. Biz təşviqetmə mexanizmlərinə cavab verən ciddi qanunvericilik bazası yaratmaq istəyirik. Bərpaolunan mənbələr hesabına generasiya etməyi nəzərdə tutduğumuz zəruri elektrik enerjisini qəbul etməyə imkan olması üçün ötürmə xətlərinin optimallaşdırılması üzrə iş aparırıq", - deyə P.Şahbazov bildirib. O, görüş iştirakçılarını yeni layihələrin birgə icrası üçün Azərbaycana dəvət edib.

Qeyd edək ki, "Energetika həftəsi" Moskvada oktyabrın 3-dən 6-dək keçirilir. Builki forumda bu sahənin 10 mindən çox nümayəndəsi iştirak edir.

**AZƏRTAC**

# Görkəmli dövlət xadimi Murtuz Ələsgərovun 90 illik yubileyinə həsr olunan beynəlxalq konfrans bölmə iclasları ilə davam edib

**Azərbaycan Respublikası Milli Məclisinin, Yeni Azərbaycan Partiyasının və Bakı Dövlət Universitetinin (BDU) birgə təşkilatçılığı ilə görkəmli dövlət xadimi, Əməkdar hüquqşünas, professor Murtuz Ələsgərovun anadan olmasının 90 illik yubileyi münasibətilə BDU-da "Azərbaycanda hüquq elminin müasir inkişaf istiqamətləri və tendensiyaları" mövzusunda keçirilən beynəlxalq elmi-praktiki konfrans bölmə iclasları ilə işini davam etdirib.**




AZƏRTAC xəbər verir ki, "Beynəlxalq hüquq", "Konstitusiya hüququ, nəzəriyyə, informasiya hüququ", "İnsan hüquqları", "Cinayət hüququ, cinayət prosesi və kriminalistika" və "Mülki hüquq, mülki proses, əmək hüququ" mövzularında keçirilən bölmə iclaslarında, ümumilikdə, 105 məruzə dinlənilib.

İclaslarda Azərbaycanla yanaşı, Rusiya, Qazaxıstan, Ukrayna, Gürcüstan və digər ölkələrdən alimlər məruzələrlə çıxış ediblər.

Yerli və xarici alimlər çıxışlarında görkəmli professor Murtuz Ələsgərovun hüquq elminin inkişafında böyük xidmətlərindən danışıblar.

Beynəlxalq konfrans oktyabrın 3-də başa çatıb.

**AZƏRTAC**

# "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri" portalının təqdimatı olub





**Oktyabrın 3-də Muzey Mərkəzində Mədəniyyət Nazirliyi tərəfindən hazırlanmış "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri" portalının (www.intangible.az) təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə layihənin rəhbəri, mədəniyyət naziri Əbülfəs Qarayev portalın yaradılmasının əhəmiyyətindən və məqsədindən söz açıb. Bildirib ki, cəmiyyətimiz və tariximiz üçün əhəmiyyət kəsb edən bu layihə ayrılıqda götürülmüş hansısa fayl, nominasiya şəklində deyil, dövlətimizin strateji xətti kimi qəbul edilməlidir.

Nazir vurğulayıb ki, müharibələrdən əziyyət çəkən ölkələrin həm canlı qurbanları, həm zəbt olunmuş torpaqları, həm də pərdəarxası, gözlə görünməyən itkiləri olur: "Bu gün təqdim etdiyimiz layihə cəmiyyəti yeni prosesə səsləyir. Gündəlik həyatımızda qeyri-maddi irs barədə düşünmürük, amma kimsə müharibənin vurduğu ziyan haqqında xəbər eşidəndə, bədxah qonşuların hansısa mədəni nümunəmizi öz adlarına çıxarması faktı ilə rastlaşanda bu zaman mütləq dövlətin bu işlə məşğul olan strukturlarını təqsirkar hesab edir. Onlar düşünmürlər ki, bu iş bütün vətəndaşların və cəmiyyətin birgə səyi nəticəsində reallaşmalıdır. Mədəniyyət abidələrimizin, ümumilikdə qeyri-maddi mədəni irsimizin qorunması vətəndaşların şüurunda formalaşmalıdır. Burada artıq hansısa müəssisə, yaxud təşkilatın fəaliyyətini gözləmək yersizdir. Yeni layihə məhz bu amala xidmət edir".

Qeyd edib ki, mədəni irsin qorunması, ona sahib çıxmaq məsələləri təxminən 10 il bundan əvvəl dünya səviyyəsində bu qədər aktual deyildi. Bu gün qloballaşma dövründə bu məsələ ən aktual və vacib mövzuya çevrilib. UNESCO çərçivəsində keçirilən sessiyalar belə sanki müharibə, döyüş xarakteri daşıyır.

Əbülfəs Qarayev diqqətə çatdırıb ki, dövlətimiz mədəni irsimizin qorunması işinin təməlini qoymasaydı, bu gün maddi nümunələrimiz bu dərəcədə təbliğ olunmayacaqdı: "Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, bu gün UNESCO-nun müvafiq siyahılarında Azərbaycanın 11 nominasiya faylı qorunur və ölkəmiz təşkilatın "Qeyri-maddi mədəni irsin qorunmasına dair" Konvensiyasına qoşulub".

Bildirib ki, "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri"nin yaradılması qeyri-maddi mədəniyyət nümunələrini dövlət qeydiyyatına almaq, onların təbliğini təşviq etmək, ermənilər tərəfindən mənimsənilməsinin qarşısını almaq üçün lazımi informativ bazanı formalaşdırmaq ehtiyacından irəli gəlib. Çünki nəsildən-nəslə ötürülən belə nümunələr xalqın uzaq keçmişinə, qədim tarixinə söykənən təcrübə əsasında yaradılır və insanlarda özünəməxsusluq, irsilik hissi formalaşdırmaqla, həm də mədəni müxtəlifliyə xidmət edir.

Əbülfəs Qarayev layihənin ərsəyə gəlməsində Aşıqlar Birliyi, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), Milli Azərbaycan Tarixi Muzeyi, Milli İncəsənət Muzeyi, Azərbaycan Xalça Muzeyi, Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Milli Kulinariya Mərkəzi və Dövlət Film Fondunun, eləcə də biblioqrafiyanın hazırlanmasında Milli Kitabxananın fəaliyyətini qeyd edib.

Vurğulayıb ki, layihə ölkəmizdə fəaliyyət göstərən bütün muzey sərvətlərinin qorunması ilə bağlı reyestr planının hazırlanmasını da zəruri edir: "Artıq bu layihə üzərində işlərə başlanılıb və ilkin format hazırlanıb. Bu gün qloballaşan, informasiya çevikliyi tələb edən zamanda öz milli sərvətlərimizi zərbə altında qoymamaqdan ötrü bütün innovativ vasitələrdən istifadə edərək ölkəmizin milli sərvətlərini müdafiə etməyi bacarmalıyıq".

Qeyd edib ki, "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri"nin yaradılması Azərbaycan hökumətinin UNESCO-nun "Qeyri-maddi mədəni irsin qorunmasına dair" Konvensiyasından irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində gördüyü işlərin nəticəsidir. Dövlət Reyestrinin elektron portalı ölkəmizin qeyri-maddi mədəni irs nümunələri, onların daşıyıcıları və təşkilatlar haqqında məlumatı, həmçinin mədəniyyət sahəsində qəbul olunmuş milli və beynəlxalq sənədləri, qeyri-maddi irs sahəsindəki ən son yenilikləri, UNESCO siyahısındakı Azərbaycan mədəni irs nümunələrini, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında lazımi elmi ədəbiyyatı, foto və videomaterialları əhatə edir. Portalda, həmçinin şəhər və rayonları, həmin bölgələrə məxsus qeyri-maddi irs nümunələri haqqında məlumatlar öz əksini tapıb.

Daha sonra nazirliyin muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin mədəniyyət sərvətlərinə nəzarət və reyestrlər sektorunun müdiri Yaşar Hüseynli reyestrlə bağlı təqdimatla çıxış edib. Bildirib ki, portal "Əsas səhifə", "Reyestr haqqında", "Reyestr", "Azərbaycan nümunələri UNESCO siyahılarında", "Ermənistanın təcavüzü", "Xəritə", "Xəbərlər", "Təkliflər" və "Əlaqə" bölmələrindən ibarətdir. Portalda ölkəmizin qeyri-maddi mədəni irs nümunələri diyarşünaslıq, folklor və sənətkarlıq olmaqla üç kateqoriyada təqdim edilir. Həmin kateqoriyalara daxil olan məfhumlar siniflərə, növlərə, janrlara və qruplara görə fərqləndirilib. Qeyri-maddi mədəni irs nümunələrinin səhifəsi nümunə haqqında arayışdan, nümunəyə aid foto və videolardan, nümunənin pasportundan, daşıyıcı və təşkilat, nümunənin yayıldığı areal haqqında məlumatlardan ibarətdir. Arayışlar UNESCO-nun tələbləri çərçivəsində tərif (təsvir), təsnifat, tarix və yayıldığı areal əhatə olunmaqla həmin sahə üzrə çalışan elmi mütəxəssislər tərəfindən hazırlanıb.

Təqdimatda çıxış edən Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, Milli Kulinariya Mərkəzinin prezidenti Tahir Əmiraslanov portalı yüksək dəyərləndiriblər. Vurğulanıb ki, qeyri-maddi mədəni irsin qorunması təkcə dövlət tərəfindən deyil, cəmiyyət tərəfindən də dəstəklənməli, daim diqqətdə saxlanılmalıdır.

Sonda nazir portalın təkmilləşdirilməsi və xarici dillərə tərcüməsi ilə bağlı təkliflərini verib.

**AZƏRTAC**

*Energetika*

# Texniki dəyişikliklər davam edir



**Azərbaycanda həyata keçirilən sürətli sosial-iqtisadi inkişaf ölkə həyatının bütün sahələrində, o cümlədən elektrik enerjisi təchizatı ilə bağlı müasir infrastrukturun yaradılması istiqamətində mühüm nailiyyətlərin əldə olunmasına əlverişli şərait yaratmışdır. Yaradılma tarixi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan müstəqil Azərbaycanın energetika sistemi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müxtəlif vaxtlarda təsdiq olunmuş dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində daha da inkişaf etdirilərək dünya standartlarına uyğun səviyyədə yenidən qurulmaqdadır. "Azərişıq" ASC bərpa olunduqdan sonra paytaxt və regionlarda elektrik enerjisi ilə təchizatın yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülməyə başlanmışdır.**

Vurğulamaq lazımdır ki, hər yerdə olduğu kimi, Bakının Nizami rayonunda da abonentlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchizatı təmin olunmuş, ötürücü güclər artırılmış, bir sıra texniki dəyişikliklər aparılmışdır.

Biz rayon Enerji Təchizat və Satışı İdarəsinin istismar şöbəsinin rəisi, təcrübəli energetik İmran Məmmədovla söhbət edərkən o, bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:

—Rayonda Prezident İlham Əliyevin "İşıqlı Azərbaycan" layihəsinin reallaşdırılması istiqamətində məqsədyönlü iş aparılır, çalışırıq ki, əhali və qeyri-əhali sektorunda müsbət dəyişikliklər müşahidə olunsun və xidmətimiz abonentləri razı salsın.

2018-ci ilin 8 ayı arxada qalmışdır. Energetiklərimizin birgə səyi nəticəsində həmin müddətdə uğurlu nəticələrə imza atılmışdır. Sentyabrın 1-dək rayonun Babək prospektinin əsaslı təmiri ilə əlaqədar yolun hərəkət hissəsinə 1500 metr boru qoyulmuş və üstü betonlanmışdır. "NZS" qəsəbəsinə 6x1425 metr yeni kabel xətti çəkilmişdir. Həmçinin, 1300 metr 6 kv-luq kabel xətti yolun hərəkət hissəsindən kənara köçürülmüş, 5 ədəd transformator daha güclüsü ilə əvəz edilmişdir.

Naxçıvanski 61, Ş.Mirzəyev 59-61, Naxçıvanski 42, 242 saylı məktəb, İ.Məmmədov 210 saylı məktəb, 251 saylı məktəb, 250 saylı məktəb, 145 saylı məktəb, Naxçıvanski 3, B.Nuriyev 47 və digər ünvanlarda bir sıra texniki dəyişikliklər aparılmışdır.

İlin ötən 8 ayında 15 saylı binanın 0,4 kv-luq kabel xətti yenisi ilə əvəz edilmiş, 34 ədəd TM və 19 KTM-də plan üzrə təmir-təftiş işləri aparılmış, 8 ədəd müxtəlif TM-lərdə əməliyyatın tez aparılması üçün vakuum açarı və digər quraşdırılmış işlər görülmüşdür.

Qeyd etmək lazımdır ki, 227 saylı məktəbin ətrafında aparılan abadlıq işləri ilə əlaqədar olaraq hava ilə gedən kabelləri yığışdırmaq məqsədilə 340 metr yer qazılaraq borular qoyulmuşdur.

Energetiklərin birgə səyi nəticəsində ilin ötən 8 ayında Keşlə qəsəbəsində 250 metr 0,4 kv-luq kabel, 605 metr 10 kv-luq kabel xətti dəyişdirilmiş, qış mövsümünə hazırlıqla əlaqədar 8 ədəd TM-in üstünün dam örtüyü yeniləşdirilmişdir.

Dünyanın aparıcı şirkətlərinin istehsal etdikləri müasir avadanlıqların alınıb quraşdırılması, yüksək texnologiyaların tətbiqi müasir tədris prosesinin yaradılmasını labüd edir. Bu istiqamətdə kadr və kadr hazırlığı problemini uğurla həll etmək, eləcə də cəmiyyətə tələb olunan təcrübəli kadr potensialını vermək üçün bir neçə il öncə Tədris Mərkəzi yaradılmışdır. Elektrik şəbəkəsində istifadə olunan və gələcəkdə istifadə olunacaq müasir texniki avadanlıqların öyrənilməsi, quraşdırılması və istismarı məqsədi ilə kollektivimizdə çalışan energetiklər mütəmadi olaraq Tədris Mərkəzində fəaliyyət göstərən kurslara göndərilir.

**Söhbəti qələmə aldı:**
**Qədir ASLAN,**
**"Respublika".**

# Ölkənin polad magistralı müasirləşir

**Bu gün ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi-iqtisadi, strateji kurs, inkişaf modeli onun siyasi məktəbinin ali məzunu, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə cavab verməklə uğurla həyata keçirilir. Son illər ölkə nəqliyyat sistemində, o cümlədən dəmir yolu nəqliyyatında əldə olunan böyük uğurlar, həyata keçirilən beynəlxalq miqyaslı layihələr Heydər Əliyev iqtisadi siyasətinin sayəsində mümkün olmuşdur.**

Son illər ölkə nəqliyyatının əsas qollarından biri olan dəmir yolunun perspektiv inkişafını təmin etmək üçün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilmiş, mühüm qərar və sərəncamlar imzalanmışdır ki, bu da ölkə dəmir yolunun sürətli inkişafı, müasirləşməsi üçün əsas və möhkəm zəmin yaratmışdır. Qəbul edilmiş Dövlət Proqramında sektorda qısa müddətdə görülən məqsədyönlü işlər öz müsbət nəticələrini verir. Paytaxtımızın quru nəqliyyatında giriş qapısı olan Bakı sərnişin vağzalının müasir standartlar səviyyəsində olması, ölkəmizə gələn vətəndaşlara, ümumiyyətlə, dəmir yolu vağzalının xidmətindən istifadə edən hər bir insana yüksək səviyyədə xidmət göstərilməsi üçün burada yenidənqurma işləri aparılıb. Vağzalın

Ölkə Prezidenti "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi barədə danışarkən vurğulayıb ki, bu dəhlizin sayəsində yüklər Pakistandan Hindistana, daha sonra İrana, ordan Azərbaycan ərazisindən Rusiya və Şimali Avropaya nəql ediləcəkdir. Azərbaycan müasir infrastruktura sərmayə qoyur və ümid edirəm ki, tezliklə bu marşrutdan istifadə olunmağa başlanacaqdır. Yəni bütün bu marşrutlar bizim ərazidən keçir. Təbii ki, Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və gələcəkdə bizə ölkəmizin inkişafına sərf ediləcək əlavə gəlirlər gətirəcəkdir.

"Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən, əlverişli coğrafi mövqeyə malik Azərbay-







ölkədə dəmir yolu nəqliyyat xidmətlərinə olan tələbatın tam ödənilməsi, ölkə dəmir yollarının beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasını təmin etmək üçün daha müasir nəqliyyat infrastrukturunun yaradılması, daşımalarıda yük vahidinə nəqliyyat xərclərinin azaldılması, Azərbaycanın tranzit potensialının artırılması və digər mühüm məsələlər nəzərdə tutulur.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən son vaxtlar dəmir yolunun inkişafı baxımından əsas məqsəd və vəzifələr, infrastruktur layihələri "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi altında vaxtında, yüksək keyfiyyətlə həyata keçirililr, ölkənin polad magistralı öz simasını tamamilə dəyişir, dünya standartlarına uyğunlaşdırılır. Bu gün "Azərbaycan Dəmir Yolları" QSC müxtəlif beynəlxalq layihələrin fəal iştirakçısı olmaqla bərabər, onların vaxtında həyata keçirilməsini təmin edir. Bu yöndə, XXI əsrin əsas böyük infrastruktur tikintilərindən olan və təkcə Azərbaycan, Gürcüstan və Türkiyə deyil, həmçinin onlarca ölkə arasında körpü rolunu oynayan Bakı-Tbilisi-Qars yeni dəmir yolu istifadəyə verilib ki, bu da ölkəmizin bu sahədə əldə etdiyi ən böyük uğurlardandır. Bir sözlə, "Azərbaycan Dəmir Yolları" QSC-yə Cavid Qurbanovun sədr təyin olunmasından ötən az bir dövr ərzində bu qurumun tarixində müasir tələblərə cavab verən son texnologiyaların tətbiqi və yeni inkişaf erası başlayıb. Bu əsas binasının fasadı, memarlıq üslubunun saxlanması şərtilə yenidən qurulub, vağzalın daxilində, xidməti otaqlarda yenidənqurma işləri görülüb. Vağzalın bilet kassaları, sərnişin platformaları müasir üslubda təmir olunubdur: vağzalın görkəmi tamamilə yeniləşmiş, xidmətin səviyyəsi ən müasir standartlara çatdırılmışdır. 3 mart 2015-ci ildə Bakı-Xırdalan-Sumqayıt sərnişin sahəsində 63 kilometr uzunluğunda baş yolların əsaslı təmirinə start verilmiş, sentyabrın 2-də işlər başa çatdırılmışdır. Sentyabr ayının 12-də Bakı sərnişin stansiyasında Bakı-Sumqayıt marşrutu ilə hərəkət edən ilk sərnişin qatarının yolasalma mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmiş və demişdir: "Belə gözəl qatarlarda çox yüksək xidmət də olmalıdır. Əminəm ki, belə də olacaq. Azərbaycan dəmir yolu öz səviyyəsini qaldırır və ən yüksək standartlara cavab verməlidir. Bunun üçün bütün imkanlar var. Yeni gözəl qatarlar alınıb. Dəmir yolları tikilir, yeni xətlər açılır. Mən əminəm ki, Azərbaycan vətəndaşları bu müsbət dəyişiklikləri görəcəklər. Bu gün dəmir yolu ölkəmizin ümumi tərəqqisinə uyğun şəkildə inkişaf edir və bu sahədə islahatlara böyük ehtiyac var. Dəmir yolu sistemində minlərlə insan işləyir. Yolun xətləri hamısı yeniləşməlidir".

Bu gün Azərbaycanın önəm verdiyi beynəlxalq layihələrdən biri də "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləridir.

can nəqliyyat xidmətlərini inkişaf etdirir, müasir infrastruktur qurur, daşımaların idarə olunması mexanizmini təkmilləşdirir və beynəlxalq nəqliyyat sisteminə inteqrasiyanı genişləndirir. Bu gün "ADY" QSC-də gedən yeniləşmə prosesinin əsas tərkib hissələrindən biri yolların əsaslı təmiridir. Bu istiqamətdə dəmir yolunda kompleks işlər görülür.

Son zamanlar dəmir yolunun vaqon və lokomativ parkının yenilənməsi istiqamətində də mühüm tədbirlər həyata keçirilir.

2018-ci ilin əvvəlindən başlayaraq Fransanın "ALSTOM" şirkəti ilə bağlanmış müqaviləyə əsasən 10 ədəd 4 oxlu, 2 sistemli (sabit və dəyişən cərəyanla işləyən) elektrovozun 1 ədədi ilin əvvəlindən Bakı lokomotiv deposuna daxil olmuşdur, 2 elektrovoz isə avqust ayında gətirilmişdir. Daxil olan elektrovozların istismara buraxılması üçün hazırda sınaq dövrü keçirilir və sınaq dövrü bitdikdən sonra ilin sonundan, 2019-cu ilin əvvəlindən istismara verilməsi nəzərdə tutulur. Vurğulayım ki, bu lokomotivlərin texniki göstəriciləri ən müasir standartlara cavab verir. Bu elektrovozlar qənaətlə işləyərək ağır çəkili qatarların daşınmasında istifadə olunacaqdır. Təmir zamanı da bu elektrovozlar az xərc tələb edir. Lokomotivlər əsasən Bakı-Böyük-Kəsik və Yalama istiqamətində yeni çəkilmiş dəmir yolları üzərində hərəkət edəcəkdir. Onu da qeyd edim ki, bu lokomotivlərdən sərnişin daşımasında da istifadə olunacaq. Bunların sürətinin daha yüksək olması sərnişinlərin mənzil başına daha tez, rahat və təhlükəsiz şəkildə çatdırılmasını təmin edəcəkdir. Bu müasir tipli lokomotivlərin idarə olunması üçün bir qrup, 6 nəfərdən ibarət lokomotiv briqadası Fransa dövlətinin Belfort şəhərində yerləşən "Alstom" şirkətinin zavodunda təlim keçərək sertifikatlar almışlar.

Bundan əlavə, Bakıdan-Gəncəyə "Ştadler" sürət qatarlarının da istifadəyə verilməsi nəzərdə tutulub, bunun reallaşması üçün işlər görülür və bu da yaxın bir zamanda reallaşacaqdır. Bütün bu işlər ölkə başçısı cənab İlham Əliyevin tapşırıq və tövsiyələri əsasında, "ADY" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi ilə həyata keçirilir. Cənab Prezident Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə "ADY" QSC-nin sədri, Cavid Qurbanovun "Şöhrət" ordeni ilə təltif olunması barədə Sərəncam imzalayıb. Bu təltif cənab Prezidentin dəmiryolçuların əməyinə verdiyi yüksək qiymətin təzahürüdür.

Bu gün Bakı Lokomotiv Deposu öz işini müasir tələblər səviyyəsində qurmuşdur. Depoda müasir tipli lokomotivlərin və elektrik qatarlarının olmasını nəzərə alan QSC-nin rəhbərliyi daim deponun işini öz nəzarətində saxlayır, depoda yeni layihələrin reallaşması üçün işlər aparılır. Depoda cari ilin ötən dövrü ərzində lokomotivlərin və elektrik qatarlarının əsaslı və cari təmir işləri planı yerinə yetirilmişdir. İşçilərin iş şəraitinin yaxşılaşdırılması daim depo rəhbərliyinin nəzarətindədir. Depo HİK-in sədri, fəxri dəmiryolçu Şirməmməd Əhmədovla əlbir işimizin sayəsində ötən 9 ay ərzində işçilərin sosial şəraitinin yaxşılaşdırılması, hüquqlarının qorunması, təhlükəsiz iş şəraitinin yaradılması, istirahətlərinin təşkili, ehtiyacı olanlara maddi yardımların göstərilməsi və s. təmin olunmuşdur. Bu işlər bundan sonra da davam etdiriləcəkdir.

Bakı Lokomotiv Deposunun kollektivi bundan sonra da öz işlərini günün tələblərinə uyğun quraraq ölkə dəmir yolunun inkişafına öz layiqli töhfəsini verəcəkdir. Fürsətdən istifadə edib dəmiryolçuları qarşıdan gələn peşə bayramı münasibətilə təbrik edir, onlara yeni-yeni əmək uğurları arzulayıram.

**Yadigar ŞİRMƏMMƏDOV,**
**"ADY" QSC, Bakı lokomotiv**
**Deposunun rəisi.**

## SOCAR AQŞ "GÜNƏŞLİ" YATAĞINDA DAHA BİR QUYU TİKİNTİSİNİ VAXTINDAN ƏVVƏL BAŞA ÇATDIRIB



SOCAR AQŞ 7 saylı stasionar dəniz özülündən faktiki dərinliyi 2790 m olan 325 saylı quyunun tikintisi işlərini təhlükəsiz, vaxtından əvvəl və ətraf mühitə heç bir ziyan vurmadan uğurla yekunlaşdırıb.

Dəyərlərinə daim sadiq qalan SOCAR AQŞ həmişə olduğu kimi, bu və növbəti quyuları da Sağlamlıq, Texniki Təhlükəsizlik və Ətraf Mühitin Mühafizəsi (STTƏMM) tələblərinə uyğun, heç bir mürəkkəbləşməyə yol vermədən, nəzərdə tutulan vaxtdan tez və iqtisadi səmərəli şəkildə tikərək sifarişçiyə təhvil verəcəkdir.

Sifarişçi SOCAR-ın "Azneft" İstehsalat Birliyidir.

* * *

## "GÜNƏŞLİ" YATAĞINDA NÖVBƏTİ QUYUDA QAZMA İŞLƏRİNƏ BAŞLANILIB

**Müəssisə "Günəşli" yatağındakı 7 saylı stasionar dəniz özülündən 327 saylı quyuda qazma işlərinə başlayıb.**

Qeyd edək ki, 327 saylı quyunun Balaxanı X horizontuna qazılması planlaşdırılır və quyunun layihə dərinliyi 2780 metr təşkil edir.



**M.MİRZƏ,**
**"Respublika".**

# Əmlak idarəçiliyindəki yenilikləri vətəndaş cəmiyyəti institutları müzakirə edib

Açıq Hökumətin Təşviqinə Dair Hökumət Vətəndaş Cəmiyyəti Dialoqu Platforması çərçivəsində 2 oktyabr tarixində **"Daşınmaz əmlakın qeydiyyatında şəffaflıq, əlçatanlıq və innovasiyalar"** mövzusunda ictimai dialoq keçirilib. Vətəndaş cəmiyyəti institutlarının təşkil etdiyi tədbirdə Əmlak Məsələləri Dövlət Komitəsinin daşınmaz əmlakın qeydiyyatı sahəsində həyata keçirdiyi yeniliklər diqqət mərkəzində olub. İctimai dialoqda 30-dan çox ictimai birliyin nümayəndələri, aidiyyəti dövlət qurumlarının nümayəndələri, xarici və beynəlxalq təşkilatların üzvləri, o cümlədən GİZ-in, Asiya İnkişaf Bankının, Azərbaycanda Amerika Ticarət Palatasının nümayəndələri, ekspertlər iştirak ediblər.

Tədbirin əsas məqsədlərindən biri vətəndaş cəmiyyəti institutları ilə dövlət qurumları arasında qarşılıqlı əlaqələrin qurulması, fəaliyyətlərlə bağlı ictimai müzakirənin aparılması, o cümlədən daşınmaz əmlak sahəsi ilə əlaqədar həmin institutların, aparıcı alim və mütəxəssislərin tövsiyələrinin toplanması və birgə ideya bankının yaradılmasıdır. Dialoqda açıq cəmiyyət institutlarının Əmlak Məsələləri Dövlət Komitəsi ilə əməkdaşlıq prinsiplərinin müəyyən olunması, ictimai təşkilatlar vasitəsilə vətəndaşlar arasında təbliğat işlərinin həyata keçirilməsi, o cümlədən fəaliyyətdə agahlıq prinsipinin təmin olunması, vətəndaş maraqlarına yönələn xidmətlərin istifadəsi məsələləri müzakirə edilib.

İctimai dialoqda çıxış edən Azərbaycan Açıq Hökumət Platformasının koordinatoru, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü Əliməmməd Nuriyev vətəndaş cəmiyyəti institutlarının dövlət qurumlarının fəaliyyətində iştirakının təmin edilməsinin əhəmiyyətli olduğunu vurğulayıb. Bildirib ki, tədbirdə vətəndaşların daha çox maraq göstərdiyi daşınmaz əmlakın qeydiyyatı sahəsi, bu sferada tətbiq edilən yeniliklər ictimai təşkilatların müzakirə obyektidir. Təqdirəlayiqdir ki, Əmlak Məsələləri Dövlət Komitəsi bu sahədə vətəndaş məmnunluğunun təmin edilməsi, əlçatanlığın artırılması istiqamətində yeni metodlar tətbiq edir, müasir dövrün tələblərinə uyğun idarəetməni həyata keçirir. Müsbət haldır ki, artıq xidməti vətəndaşın ünvanına çatdıran sosial layihələr reallaşdırılır, komitə geniş elektronlaşdırmaya yer verir.

Əmlak Məsələləri Dövlət Komitəsinin sədr müavini Rafiq Cəlilov isə qeyd edib ki, mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətində vətəndaş cəmiyyəti institutlarının müəyyən edilmiş formada iştirakı, ictimai məsləhətləşmələr və ictimai rəyin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Tədbir daşınmaz əmlakın qeydiyyatında vətəndaş məmnunluğunun təmin edilməsi, bu sahədə şəffaf mühitin yaradılması və innovativ üsulların tətbiqində informasiya cəmiyyətinin geniş şəkildə məlumatlandırılması, habelə qeyri-hökumət təşkilatlarının cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən məsələlərin həllinə cəlb olunması baxımından vacib xarakter daşıyır. Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə digər sahələrlə yanaşı, əmlak idarəçiliyi sahəsində də genişmiqyaslı işlər həyata keçirilir, qeydiyyatın sadələşdirilməsi, əlçatanlığın təmin edilməsi üçün qanunvericilikdə bir sıra dəyişikliklər edilib.

Görülən işlərin nəticəsidir ki, Azərbaycan "Doing Business 2018" hesabatında əmlakın qeydiyyatı göstəricisinə görə son iki il ərzində bir sıra Avropa ölkələrini qabaqlayaraq ön sıralarda qərarlaşıb.

Daha sonra "Daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi", "Daşınmaz əmlakın qeydiyyatında elektron xidmətlər, innovasiyalar və vətəndaş məmnunluğu" mövzularında ictimai təqdimatlar olub.

**N.CAVADOV,**
**"Respublika".**

# Dövlət qayğısı pambıqçılara gəlir gətirir

Ağdamda yeni bir ab-hava yaranıb, dövlət tərəfindən göstərilən diqqət və qayğı sabaha olan inamı daha da gücləndirib. Prezident İlham Əliyevin sərəncamı ilə bu günlərdə rayona yeni icra başçısı təyin olunub. Kadr dəyişikliyi insanlar arasında canlanma yaradıb, yüksək əhval-ruhiyyə diqqəti daha çox cəlb edir. Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov fəaliyyətə başladığı ilk gündən kəndlərdə əhali ilə görüşlər keçirir, məcburi köçkün qəsəbələrində məskunlaşan sakinlərin istək və problemlərini dinləyir, əməli tədbirlər görülür.

Cəbhə bölgəsində yerləşən Ağdam rayonunda təsərrüfat işlərinin ahəngi səngimir. Tarlalarda və bostanlarda minbir zəhmət hesabına yetişdirilən məhsul yığılır, bütün qüvvələr bolluq yaradılmasına yönəldilib. Demək olar ki, hər gün tədarük məntəqələrinə və bazarlara yüksəkkeyfiyyətli mənsul yola salınır. Eyni zamanda, payız tarla işləri də davam etdirilir. Fermerlər və fərdi təsərrüfat sahibləri, həmçinin payızlıq əkinlər üçün şum və səpin işləri aparırlar. Bir neçə gündür ki, cəbhə bölgəsində yerləşən rayonda pambıq yığımına başlanılıb.

Rayon icra hakimiyyətindən bildirdilər ki, Prezident İlham Əliyevin ölkəmizdə aqrar sektorun ənənəvi sahəsi olan pambıqçılığın inkişafı ilə əlaqədar verdiyi tövsiyə və tapşırıqlara müvafiq olaraq rayonda bu sahənin dirçəldilməsi istiqamətində mühüm addımlar atılıb. Bu il rayon ərazisində 3100 hektar sahədə çiyid səpilib. Aparılan düzgün aqrotexniki qulluq sayəsində tarlalarda bol məhsul yetişib.



Məhsulun maşınla yığılması nəzərdə tutulan sahələrdə pambığın yarpaqlarının kimyəvi yolla tökdürülməsi üçün defoliasiya işləri görülüb. Pambıq yığımına 10 ədəd kombayn, 35 ədəd traktor, 75 ədəd qoşqu, 4 ədəd yükləyici cəlb edilib. Cari ildə 6200 tondan artıq pambıq istehsalı proqnozlaşdırılır.

"MKT İstehsalat Kommersiya" MMC-nin Ağdam filialının direktoru Habil Abbasov tarlalardan orta hesabla 27-30 sentner məhsul götürüləcəyini bildirib: "Bu il 376 nəfər fermerlə müqavilə əsasında 871 hektar sahədə pambıq becərmişik. Bağlanan müqaviləyə əsasən, pambıq istehsalçıları becərmə zamanı lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin olunublar. Becərmə işləri bütün aqrotexniki qaydalara əsasən aparılıb. Tarlaların vəziyyəti qənaətbəxşdir, barlı kollar yetişib. Hazırda məhsul yığımı uğurla davam edir. Pambıq yığımına 4 ədəd pambıqyığan kombayn, 18 ədəd traktor, 36 ədəd qoşqu cəlb etmişik".

Uzun illərdir kənd təsərrüfatı sahəsində çalışan Ağdam rayon Kolqışlaq kənd sakini Yaşar Abbasov bir neçə ildir ki, pambıq istehsalında uğurlu nəticələr əldə edərək yaxşı gəlir götürdüyünü deyib: "Ötən il 4 hektarda pambıq becərib, hər hektardan orta hesabla 37,5 sentner olmaqla, 15 ton məhsul əldə etdim. Bu il isə pambığın əkin sahəsini bir qədər də artırmışam. Tarlalarda məhsulumuz boldur. Hər hektardan 40 sentnerdən yuxarı məhsul gözləyirəm. Pambığın alış qiymətinin hər ton üçün 50 manat artırılması biz fermerləri daha çox məhsul istehsal etməyə həvəsləndirib. Odur ki, növbəti ildə əkin sahəsini daha da genişləndirəcək və daha çox məhsul istehsal etməyə çalışacağam".

Hər gün maşın karvanı pambıq qəbulu məntəqələrinə bol məhsul daşıyır, burada çalışan insanlar yığımdan əldə etdikləri gəlirdən razılıq edirlər.

**Salman ALIOĞLU,**
**"Respublika".**

*5 Oktyabr Müəllim Günüdür*

# Qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün səylə çalışırıq



**Bu gün müstəqil Azərbaycanın qurucusu kimi bütün sahələrdə islahatların əsasını qoymuş, inkişaf istiqamətlərini müəyyənləşdirmiş ulu öndər Heydər Əliyev Azərbaycan təhsilindən danışarkən onun başlıca məqsədini belə ifadə etmişdir: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır".**

Artıq 2013-cü ildə qəbul olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və onun icrası ilə bağlı 2015-ci ildə təsdiq edilmiş Fəaliyyət Planı təhsil sahəsindəki fəaliyyətlərin hüquqi əsasına çevrilmişdir. Hazırda yeni məzmun, pedaqoji kadr, idarəetmə, maliyyə mexanizmləri və infrastruktur məsələləri ilə bağlı beş strateji istiqamətdə islahat tədbirlərinin həyata keçirilməsi addım-addım davam etməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, "Biz inkişaf etmiş ölkələrin təcrübəsini yaxşı bilirik və görürük ki, o ölkələr sözün əsl mənasında inkişaf etdi, orada təhsilin səviyyəsi yüksəkdir. Biz çalışırıq ki, Azərbaycanda bu sahəyə daim diqqət göstərilsin, praktik tədbirlər görülsün, həm təhsil sisteminin maddi-texniki bazası gücləndirilsin, eyni zamanda və ən önəmlisi təhsilin keyfiyyəti artsın. Həm orta, həm də ali məktəblərdə bu proses ardıcıllıqla, vahid sistem şəklində aparılmalıdır və aparılır".

Azərbaycan təhsilinin inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əməyi danılmazdır. Onun rəhbərliyi altında ümummilli lider Heydər Əliyevin adını daşıyan Fond tərəfindən yeni məktəblərin tikilməsi, infrastrukturunun yeniləşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində böyük işlər görülmüşdür. Hazırda Təhsil Nazirliyinin rəhbərliyi ilə təhsil sahəsində görülən işlər nəticəsində çox böyük uğurlar qazanılır, qabaqcıl ölkələrin təcrübəsi öyrənilib tətbiq edilir, Azərbaycan məktəbliləri dünya olimpiadalarında uğurla iştirak edirlər.

Azərbaycanda təhsil sahəsində əldə edilən nailiyyətlərdə Zəngilan rayon təhsil işçilərinin də əməyi az olmamışdır. Belə ki, 2017-2018-ci tədris ilində rayonun təhsil işçiləri ötən illərdə olduğu kimi, məcburi köçkünlük şəraitində işləməli olmuşlar. Ötən dərs ilində mövcud olan 33 ümumtəhsil məktəblərinə 5167 şagird cəlb edilmişdir ki, onların da təlim-tərbiyəsi ilə 876 nəfər pedaqoji işçi məşğul olmuşdur. Məktəblərin 22-si Bakı, 6-sı Sumqayıt, 2-si Şirvan şəhərində, 2-si Sabirabad, 2-si isə Abşeron rayonunda fəaliyyət göstərmişdir.

2017-2018-ci dərs ilində rayonun ümumtəhsil məktəblərində təlim-tərbiyə sahəsində xeyli işlər görülmüş, təlimin keyfiyyəti nəzərəçarpacaq dərəcədə yüksəlmiş, məktəblərin maddi-texniki bazası yaxşılaşdırılmışdır.

Rayonun tam orta məktəblərinin XI siniflərini müvəffəqiyyətlə bitirmiş məzunlardan 368 nəfəri ali məktəbə sənəd vermiş, sənəd verənlərin 284 nəfəri ali məktəblərə qəbul olmuşdur. Onlardan 48 nəfəri 500-600 arası , 23 nəfəri isə 600-dən yuxarı bal toplamışdır. Rayon üzrə ali məktəbə qəbulda 1, 3, 5, 6 , 7, 9, 11, 19 , 21, 22, 26, 33, 34, 35 və 37 nömrəli məktəbin məzunları daha fəallıq göstərmişlər. Rayon üzrə ali məktəblərə qəbul olunan məzunlar, sənəd verən məzunların 77 faizini təşkil etmişdir. Ali məktəbə qəbul olanların 108 nəfəri və ya 38%-i 300-500, 71 nəfəri və ya 25.35%-i isə 500-700 arası bal toplamışlar. Beləliklə, ali məktəblərə qəbul olanların 63.38 faizi 300-700 arası bal toplamışdır. Bu, respublikanın orta göstəricisinə bərabər olmuşdur. Sevindirici haldır ki, rayon üzrə ən yüksək bal 6 nömrəli tam orta məktəbin məzunu Cahangirov Yusif Müslim oğlu toplamışdır (690 bal). Ali təhsil müəssisələrinə rayonun 3, 7, 9, 21 nömrəli tam orta məktəblərindən 2 məzun, 26 nömrəli tam orta məktəbdən isə 3 məzun 600-dən yuxarı bal toplayaraq tələbə adını qazanmışlar. Ötən tədris ili ilə müqayisədə 600-dən yuxarı bal toplayanların sayı 5 nəfər artmışdır.

Rayonda təhsil bir prioritet məsələ kimi daim icra hakimiyyətinin başçısı Ramiz Həsənovun nəzarətindədir və onun diqqəti, qayğısı ilə hərtərəfli əhatə olunmuşdur. Ramiz Həsənovun mütəmadi olaraq məktəblərdə olması, pedaqoji və şagird kollektivləri ilə görüşləri zamanı gələcəyimizin inkişafının yüksək intellektual səviyyəli təhsilli gənclərdən asılı olması barədə etdiyi çıxışlar və verdiyi tövsiyələr artıq bu gün qazanılmış nəticədə öz bəhrəsini vermişdir. Rayonda bütün sahələrə, o cümlədən təhsilə göstərdiyi diqqət və qayğıya görə rayon icra hakimiyyətinin başçısı Ramiz Həsənova təhsil işçiləri adından dərin təşəkkürümü bildirirəm.

Təhsil işçilərindən bu gün elmli, bacarıqlı, vətənpərvər, kompüter texnologiyasına yiyələnən, xarici dilləri yaxşı bilən, dövlətə və dövlətçiliyə sədaqətli olan, vətəni canından artıq sevməyi bacaran vətəndaş yetişdirmək tələb olunur. Biz pedaqoji işçilər də bütün bilik və bacarıqlarımızı bu nəticəni əldə etmək üçün səfərbər etməliyik, həm öyrənməli, həm də öyrətməliyik.

Təlim-tərbiyə işinin səmərəliliyinin artırılmasıda, təlim keyfiyyətinin yüksəldilməsində əsas amillərdən biri şagirdlərin dərsə davamiyyəti məsələsidir. İlboyu bu məsələ nəzarətdə saxlanılır. Dərs ili müddətində məktəblərdə aparılan müşahidələr, monitorinqlər və alınan məlumatlar göstərir ki, təlim-tərbiyə işinə təsir edən əsas meyarlardan biri olan şagirdlərin dərsə davamiyyəti bir çox məktəblərdə yaxşı təşkil olunmuşdur.

Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının istisnasız olaraq hər bir sahəyə nüfuz etməsi dünyanı nəhəng informasiya məkanına çevirmişdir. Tədqiqatlar göstərir ki, İKT sahəsində savadlılığın dövlətə verdiyi fayda istənilən sənaye yeniliyinin səmərəsindən bir neçə dəfə çoxdur. Bu istiqamətdə də məktəblərimizdə müəyyən işlər görülmüşdür. Hazırda kompüterlərin sayı 345-ə çatmış, onlardan 307 ədədi məktəblərə, 20-si təhsil şöbəsinə, 18 ədədi isə məktəbdənkənar müəssisələrə verilmişdir. Hazırda rayonun ümumtəhsil məktəblərində hər 16 şagirdə bir kompüter düşür.

Yeni dərs ilində qarşıda duran əsas vəzifələr təlim-tərbiyə sahəsində yüksək nailiyyətlər əldə etmək, pedaqoji kollektivlərdə işgüzar şərait yaratmaq, istedadlı şagirdlərlə işləmək bacarığı əldə etmək, tarixi günlərin milli ruhda keçirilməsini təşkil etmək, habelə müstəqil Azərbaycan Respublikası üçün bilikli, bacarıqlı gənclərin yetişdirilməsindən ibarətdir.

Zəngilan rayon təhsil işçiləri bundan sonra da qarşıya qoyulan vəzifələrin layiqincə yerinə yetirilməsi üçün pedaqoji kollektivlərin gücündən səmərəli istifadə edilməsinin təşkilinə nail olacaqdır.

**Nəsib MİRİYEV,**
**Zəngilan Rayon Təhsil Şöbəsinin müdiri.**

# Elm və təhsilə həsr edilmiş şərəfli ömür

**İstedadlı alim və pedaqoq Əliyeva Roza Əli qızı Azərbaycanın səfalı və dilbər guşələrindən olan Tovuz rayonunda 1938-ci ilin 3 sentyabrında ziyalı ailəsində dünyaya gəlmişdir. O, Tovuz rayonunda orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra, 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) coğrafiya fakültəsinin tələbəsi olmuşdur.**

Təhsil aldığı ali məktəbi böyük uğurla bitirdikdən sonra 1962-ci ildə təyinatla Azərbaycan Milli Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunda kiçik elmi işçi vəzifəsində ilk dəfə əmək fəaliyyətinə başlamışdır. Elmi-tədqiqat işlərinə çox böyük marağı və bacarığının olması nəticəsində Roza xanım Əliyeva 1969-cu ildə bu institutda aspiranturaya qəbul olunmuş və 1971-ci ildə uğurla namizədlik dissertasiyasını müdafiə edərək kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi almışdır.

Roza xanım Əliyeva AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunda çalışdığı sonrakı illərdə də apardığı elmi-tədqiqat işlərinə böyük həvəs və maraq göstərərək uğurlu elmi nəticələr əldə etmiş, onlarca elmi məqalələr, kitablar, elmi təkliflər və metodik göstərişlər, torpaq xəritələri çap etdirmişdir. Aparılmış bu uğurlu tədqiqatların nəticəsində, 1973-cü ildə Roza xanımın apardığı elmi-tədqiqat işləri yüksək qiymətləndirilərək, işlədiyi institutda baş elmi işçi vəzifəsinə təyin edilmişdir. Bu müvəffəqiyyətdən daha da ruhlanan Roza xanım 1979-cu ildən başlayaraq fəal surətdə doktorluq dissertasiyası üzərində geniş elmi-tədqiqat işlərinə başlamış və qısa müddətdə bir sıra dəyərli və əhəmiyyətli elmi nəticələr əldə etmişdir.

**Roza Əliyeva Azərbaycanın zəngin və bərəkətli torpaq örtüyündə apardığı dərin və hərtərəfli elmi tədqiqatlar nəticəsində o vaxtlar AMEA-nın Coğrafiya İnstitutunun direktoru vəzifəsində işləyən, görkəmli torpaqşünas və ekoloq, mərhum akademik Həsən Əliyevlə birlikdə 1981-ci ildə "Azərbaycanın torpaq ehtiyatları, onların səmərəli istifadə olunması və qorunması" (rus dilində) adlı olduqca dəyərli və sanballı kitabı çap etdirmişdir. Bu kitab Azərbaycan Torpaqşünaslıq elminin inkişafına böyük töhfə oldu.**

Belə deyirlər ki, insan bu dünyaya göz açanda Ulu Tanrıdan hər bir insana bir ömür payı, müddəti və alın yazısı və qədər-qismət yazılır. Taleyi Roza xanımı 1983-cü ildə ağır imtahana çəkdi və o vaxtlar Azərbaycan KP MK katibi vəzifəsində işləyən ömür-gün yoldaşı Əliyev Firudin Əli oğlunun qəflətən vəfatından sonra, dörd övladının qayğısı onun üzərinə düşdüyündən, elmi-tədqiqat işlərini davam etdirmək imkanı olmadı. Bu dövrdən başlayaraq Roza xanım böyük ailənin bütün qayğılarını, çətinliklərini öz üzərinə götürərək uşaqlarının təlim-tərbiyəsi, təhsilinin qayğısına qaldı və bu çətin və məsuliyyətli valideyn borcundan şərəflə çıxa bildi.

Roza xanım uzun illər ərzində böyük həvəs və müvəffəqiyyətlə həyata keçirdiyi elmi-tədqiqat işlərini məcburiyyət üzündən dayandırmalı oldu və həmin dövrdən pedaqoji fəaliyyətə başladı. Roza xanım 1984-cü ildə o vaxtlar çox böyük nüfuza malik Bakı Ali Partiya məktəbində Kənd təsərrüfatının iqtisadiyyatı kafedrasına dosent əvəzi vəzifəsinə işə qəbul edildi və fəal surətdə pedaqoji fəaliyyətə başladı.

Roza xanımın həyatda qarşılaşdığı bu böyük çətinliklər onu işini dəyişməyə vadar etsə də, böyük ürəyə sahib olan insanı ruhdan sala bilmədi. Pedaqoji fəaliyyət illərində Roza xanım öhdəsinə düşən işləri müvəffəqiyyətlə həyata keçirir, ruhdan düşmədən gecə-gündüz öz üzərində çalışır, yeni mühazirələr, elmi məqalələr, metodik vəsaitlər, proqramlar hazırlayır və bunları çap etdirir. Bu fəal pedaqoji fəaliyyətinə görə Roza xanım 1985-ci ildə SSRİ Ali Komissiyası tərəfindən Kənd təsərrüfatının iqtisadiyyatı kafedrasının dosenti vəzifəsinə layiq görülür.

Azərbaycan 1991-ci ildə müstəqillik qazandıqdan sonra Bakı Ali Partiya məktəbinin strukturu və profili dəyişilərək Bakı Sosial İdarəetmə və Politologiya İnstitutuna çevrilir. Roza xanımın apardığı fəal pedaqoji fəaliyyətinə görə 1995-ci ildə bu institutun İqtisadiyyat kafedrasının müdiri vəzifəsinə təyin edilir.

**Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Azərbaycanda yeni nəsil, peşəkar, çevik idarəetmə qərarları çıxara bilən idarəçi kadrların hazırlanmasına ehtiyac olmasını nəzərə alaraq, yeni ali təhsil ocağının yaradılması zərurətindən Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu ləğv edildi, onun bazasında 1999-cu ilin 03 yanvarında Azərbaycan Respublikasının Prezidentui yanında Dövlət İdarəçilik Akademiyası yaradıldı. Dosent Əliyeva Roza Əli qızı bu Akademiyada İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının müdiri vəzifəsinə təyin edildi və 2011-ci ilə qədər kafedraya müvəffəqiyyətlə rəhbərlik etdi.**

Roza xanım Əliyeva Dövlət İdarəçilik Akademiyasında işlədiyi uzun illər ərzində təlim və tədrisin yeni, müasir zaman tələblərinə uyğun olaraq, innovativ iqtisadiyyatın davamlı inkişafı haqqında çoxsaylı mühazirələr oxuyur və kafedranın profilinə uyğun olaraq dövlətin iqtisadiyyatı tənzimləməsi üzrə qərarları, elmi yenilikləri, infrastruktur layihələrinin həyata keçirilməsinin vacibliyini, dövlətin iqtisadiyyatı tənzimləməsi üzrə qəbul etdiyi çoxsaylı Dövlət proqramlarının reallaşmasındakı uğurları, ölkəmizin iqtisadiyyatda və beynəlxalq iqtisadi münasibətlərdə, beynəlxalq ticarət sahəsində əldə olunan böyük nailiyyətləri və s. auditoriyalarda, respublika və beynəlxalq konfranslarda, müxtəlif tədbirlərdə, seminarlarda tətbiq edir və elmi məqalələr, dərsliklər çap etdirir.

Məsələn, 2010-cu ildə Roza xanım Əliyeva böyük və ağır zəhmətə qatlaşaraq "Beynəlxalq iqtisadi münasibətlər" adlı dərs vəsaitini çap etdirmiş və Azərbaycanda "İlin ən yaxşı kitabı" mükafatına layiq görülmüşdür. Dərs vəsaitlərinin hazırlanması istiqamətində fəaliyyətini uğurla davam etdirən Roza Əliyeva 2013-cü ildə Akademiyanın tələbə və magistrlərin çox ehtiyacı olan "İqtisadiyyatın dövlət tənzimlənməsi" adlı dərs vəsaitini çap etdirmişdir.

Uzun illər elmi və pedaqoji fəaliyyətlə müvəffəqiyyətlə məşğul olan Roza Əliyeva bir peşəkar və savadlı müəllim kimi Akademiyada dərs dediyi bütün tələbələrin, magistrantların və doktorantların ən çox sevdiyi və böyük hörmət bəslədiyi müəllimlərdəndir. Respublika Prezidenti İlham Əliyev müasir dövrün tələblərinə uyğun, gənc nəslin təhsil və intellektual səviyyəsinin artırılmasını yüksək qiymətləndirir və stimullaşdırır. Prezident İlham Əliyev "Qara qızılı insan kapitalına çevirək" və "Ölkənin sosial-iqtisadi inkişafının əsası mövcud olan təbii resurslar deyil, əhalinin intellektual səviyyəsidir" — deyərək şagird, tələbə, magistr, doktorantlara və müəllimlərə daim qayğı və hörmət göstərir, müəllim adının şərəfli və çətin, məsuliyyətli peşə olduğunu, yüksək səviyyəli, peşəkar, kreativ kadrların hazırlanmasında, yetişməsində müəllim əməyini yüksək qiymətləndirir və mütəmadi olaraq mükafatlandırır.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərancamına əsasən dosent Roza Əliyevanın müasir tələblərə cavab verən idarəedici kadrların hazırlanması və pedaqoji fəaliyyətindəki uğurlara görə



əməyi yüksək qiymətləndirilmiş və o, 2009-cu ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Roza xanım Əliyevanın bu 80 illik mənalı, şərəfli ömür yolunda qazandığı ən böyük uğurlardan, mükafatlardan biri də onun dörd övladını təkbaşına böyüdüb, yaxşı tərbiyə etməsi, hamısına ali təhsil verməsi, cəmiyyətimiz, dövlətimiz üçün əsl vətəndaşlar yetişdirməsidir. Roza xanım səkkiz sevimli, tərbiyəli nəvələri və iki nəticəsi ilə fəxr edə bilər. Nəvələrindən ikisi Norveç və Şotlandiyada magistr və bakalavr üzrə təhsil alıblar.

Respublikanın və Akademiyanın ictimai həyatında fəal iştirak edən dosent Əliyeva Roza Əli qızı 2000-ci ildən Yeni Azərbaycan Partiyasının, fakültə və Akademiya Böyük Elmi şuralarının üzvüdür.

Mənim 1975-ci ildən AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda işlədiyim dövrdən tanıdığım Roza Əliyevanın bir alim və bacarıqlı pedaqoq kimi özünəməxsus xarakterik insani xüsusiyyətləri var: prinsipiallıq, ədalətlilik, sədaqətlilik və səmimilik anlayışları onun həyat və fəaliyyətində ön planda durur. Bu səbəbdən də Akademiyanın əməkdaşları, tələbələri və magistrantları onu əsl müəllim, kamil bir insan kimi qəbul edirlər. Roza xanımın sağlam təfəkkürü, intellektual potensialla mənəvi zənginliyin vəhdətindən ibarətdir.

Uzun illər xalqına və dövlətinə sədaqətlə xidmət göstərən Roza xanım Əliyeva hazırda da Dövlət İdarəçilik Akademiyasında İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının dosenti vəzifəsində elmi-pedaqoji fəaliyyətini müvəffəqiyyətlə, səmərəli şəkildə davam etdirir. Ona Dövlət İdarəçilik Akademiyasının çoxsaylı kollektivi adından bu şərəfli, çətin və məsuliyyətli işində və şəxsi həyatında uğurlar arzulayırıq!

**Yusif ZEYNALOV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının müdiri.**

# "Azərbaycan Beynəlxalq Nəqliyyat sistemində: Hədəflər və perspektivlər"

**Təhsil Nazirliyi və Bakı Mühəndislik Universitetinin birgə təşkilatçılığı ilə "Azərbaycan Beynəlxalq Nəqliyyat sistemində: Hədəflər və perspektivlər" mövzusunda elmi-praktik konfrans öz işinə başlayıb. Konfransa yerli alimlərlə yanaşı, xarici ölkələrdən də məqalələr göndərilib.**

Konfrans iştirakçıları açılış mərasimindən öncə universitetdə yaradılmış Heydər Əliyev guşəsini ziyarət edərək hörmət və ehtiramlarını bildiriblər. Konfransın açılış mərasimində Azərbaycan ictimaiyyətinin nümayəndələri, ölkəmizdə fəaliyyət göstərən logistika mərkəzlərinin rəhbərləri, bu sahədə tanınmış alimlər və mütəxəssislərlə yanaşı, dünyada logistika sahəsində tanınmış universitetlərin alimləri də iştirak ediblər.




Açılış nitqi ilə çıxış edən universitetin rektoru, professor Havar Məmmədov konfrans iştirakçılarını salamlayıb və ölkəmizdə logistika sahəsində görülən işlərdən və bu baxımdan konfransın əhəmiyyətindən danışıb. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan logistika layihələrinin ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini və onun nəticələrinin iqtisadiyyatımıza olan töhfələrindən danışıb. Nazirliyinin Elm sektorunun müdiri Anar Kazımov, Avropa-Qafqaz-Asiya Beynəlxalq nəqliyyat dəhlizinin (TRASEKA) hökumətlərarası komissiyasının Azərbaycan üzrə milli katibliyinin rəhbəri Akif Mustafayev və Abşeron logistika mərkəzinin direktoru Ziya Ağayev çıxış edərək möhtərəm Prezidentimiz İlham Əliyevin nəqliyyat sektoruna olan diqqət və qayğısının nəticəsi olaraq bu sahənin hazırkı inkişaf səviyyəsindən, logistika sahəsində xarici ölkələrlə olan əməkdaşlıqdan və birgə həyata keçirilən layihələrdən danışıblar.

Çıxışlardan sonra plenar iclasla davam edən konfransda Akif Mustafayevin, Xudayar Həsənlinin, A.Q.Nekrasovun, K.İ.Atayevin və A.S.Sinitsinanın məruzələri ilə davam edib.

Qeyd edək ki, BMU-da keçirilən konfrans oktyabrın 5-dək 5 seksiya üzrə işini davam etdirəcək.

**M.MİRZƏ,**
**"Respublika".**

# Tağay kəndində yeni məktəb

Son 10 ildə Siyəzən rayonunda bir sıra yeni məktəb binaları tikilib istifadəyə verilmişdir. 2018-ci ildə ölkə Prezidentinin sərəncamı ilə rayonun daha üç - Tağay, Qalaltı, Qozağacı kəndlərində modul tipli məktəb binalarının tikintisi həyata keçirilir. Tağay kəndində artıq məktəb binasının tikintisi başa çatmışdır. 2017-ci ilin fevral ayında inşasına başlanılan birmərtəbəli tədris ocağının ümumi sahəsi 300 kvadratmetrdir. Doqquz otaqdan ibarət məktəbin 7 sinif otağı vardır. 80 yerlik məktəb binası lazımi avadanlıqlarla təchiz olunmuş, tədris üçün hər bir şərait yaradılmışdır. Modul tipli bina yanğın xəbərdarlıq sistemi, işıq və su təchizatı ilə təmin olunub.

Bu günlərdə yeni məktəbin açılış mərasimi keçirilmişdir. **Məktəbin direktoru Solmaz İlyasova** tədbiri açaraq demişdir: "Dərs ilinin ilk




günlərində yeni binanın istifadəyə verilməsi nəinki məktəbimiz üçün, kəndimiz üçün çox böyük və əlamətdar hadisədir. Şagird və müəllimlərimizin sevincinin həddi-hüdudu yoxdur. Uzun illər məktəbimiz köhnə, heç bir şəraiti olmayan uyğunlaşdırılmış binada yerləşirdi. Bu gün artıq tədrisi müasir binada həyata keçirəcəyik. Hazırda məktəbimizdə 63 nəfər şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 13 nəfər müəllim məşğul olur. Ümid edirik ki, məktəbimizin pedaqoji kollektivi yaradılan şəraitdən səmərəli istifadə edərək təhsilin keyfiyyətini daha da yaxşılaşdıracaqdır. Fürsətdən istifadə edib bizə belə bir gözəl məktəbi hədiyyə etdiyinə görə dövlətimizə, onun başçısı cənab İlham Əliyevə məktəbimiz adından, eləcə də valideynlər adından dərin təşəkkürümüzü bildiririk".

Sonra rayon **Təhsil şöbəsinin müdiri Rafael Hacıyev** məktəbin açılışını bildirən lenti kəsmiş, yeni dərs ili və yeni tədris binasının istifadəyə verilməsi münasibətilə şagird və müəllimləri təbrik etmişdir.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

# Tərtər: 1 saylı nümunəvi məktəbin şöhrəti

Tərtər cəbhə bölgəsində yerləşməsinə və hər gün mənfur düşmənin atəşkəsi pozmasına baxmayaraq rayonda bütün sahələrdə inkişaf və tərəqqi təmin olunmuşdur. Təhsil işçilərinin ənənəvi konfransı keçirilən zaman çıxış edənlər qabaqcıl ümumtəhsil məktəblərinin ünvanına xoş sözlər işlədərək onlara yeni uğurlar arzu edirdilər. Biz də daha çox müvəffəqiyyət əldə etmiş rayonun qocaman təhsil müəssisələrindən olan Əsəd Məmmədov adına Tərtər şəhər 1 saylı tam orta məktəbdəki real vəziyyətlə tanış olmaq üçün məktəbin direktor əvəzi Seymur İbrahimovla həmsöhbət olduq.

Müsahibim bildirdi ki, bu təhsil müəssisəsi 1903-cü ildən fəaliyyət göstərir. 2003-cü ildə dövlətimizin başçısı cənab İlham Əliyevin sərəncamı ilə müasir standartlara tam cavab verən yeni məktəb binası inşa olunaraq müəllim və şagirdlərin ixtiyarına verilmişdir. Ölkə başçısının bu addımını müəllim və şagird kollektivi onlara dövlətin diqqət və qayğısının bariz nümunəsi kimi qiymətləndirirlər. Məktəb bütün zəruri avadanlıqlarla təmin olunmuşdur. Geniş və səliqəli idman zalı, akt zalı, bütün cihazlarla təmin olunmuş fizika və kimya laboratoriyaları, iki kompüter otağı (iki otaqda əlli kompüter dəsti var), hərbi hazırlıq kabineti və digər kabinetlər fəaliyyət göstərir. Həyətdə futbol və voleybol meydançaları şagirdlərin istifadəsinə verilmişdir. Məktəbdə mütəmadi olaraq vətənpərvərlik mövzusunda keçirilən tədbirlərin nəticəsidir ki, son illərdə təhsil müəssisəsinin 9 nəfər məzunu ali hərbi məktəb və liseylərə qəbul olunmuşlar. Onlardan bəziləri hazırda qüdrətli Azərbaycan ordusunun müxtəlif sahələrində yüksək rütbəli zabit kimi vətənə ləyaqətlə xidmət edirlər.

Seymur müəllim bildirdi ki, bu tədris ilində 1 saylı məktəbin 55 nəfər məzunu olmuşdur. Məzunlardan 44 nəfəri qəbul üçün sənəd təqdim etmiş, onlardan 29 nəfəri respublikanın bir sıra nüfuzlu ali təhsil ocaqlarına müvəffəqiyyətlə qəbul olmuşlar. Sevindirici haldır ki, məzunlardan Əliyeva Laçın Zaur qızı 687 və Əliyeva Nərmin İlqar qızı 675 bal toplayaraq Azərbaycan Tibb Universitetinə qəbul olunmuşlar. 3 nəfər 500-dən yuxarı, qalanı isə 400-dən yuxarı bal toplayaraq tələbə adını qazanmışlar. Qeyd etmək lazımdır ki, həmişə olduğu kimi, 600-dən yuxarı bal toplayaraq tələbə adını qazananlar bu il də rayon icra hakimiyyəti tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılmışlar. Məzunlardan 9 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olmuşlar.

Cari ildə 1-ci sinfə 96 şagird qəbul edilmişdir. Şəffaflığın təmin olunması üçün bu işi 1-ci sinfə qəbul komissiyası həyata keçirmişdir. 1 saylı məktəb idman sahəsində bir sıra uğurlu nəticələr əldə etmişdir. Belə ki, 11-ci sinif şagirdi Allahverdiyev Murad İlham oğlu kikboksinq üzrə Bakı şəhərində keçirilən yarışda 1-ci yeri tutaraq Avropa çempionatına vəsiqə qazanmışdır. Tiflis şəhərində keçirilən yarışda da 1-ci yerə layiq görülmüşdür. Beləliklə, cəsur idmançımız Yunanıstanın Afina şəhərində keçirilən Avropa çempionatında iştirak etmişdir. Sevindirici haldır ki, Murad Allahverdiyev bu yarışda erməni millətindən olan rəqibinə qalib gələrək ikinci yeri qazanmış, gümüş medala layiq görülərək Avropa çempionu olmuşdur. Qəhrəman idmançının rayona gəlişini tərtərlilər böyük coşqu ilə qarşılayıblar. Həmin gün bütün rayon sakinləri əsl toy-bayram əhval-ruhiyyəsində olmuşdur. İdmançı rayon rəhbərliyi tərəfindən qiymətli hədiyyə və tərifnamə ilə təltif olunub.

Rayonda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının yüz illiyinə həsr olunmuş şahmat yarışında məktəbin komandası rayon birinciliyinə layiq görülüb. Qalib komandanın üzvləri RİH, YAP rayon təşkilatı və təhsil şöbəsi tərəfindən mükafatlandırılıblar. Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar rayonun ümumtəhsil mək-



təbləri arasında keçirilən futbol yarışında məktəbin futbol komandası 2-ci yerə layiq görülüb. 1 saylı tam orta məktəb bilik yarışmalarında da ön sıralarda yer tutur. Azərbaycan Respublikasi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə Tərtərdə "Vətənimiz Azərbaycandır" mövzusunda keçirilən inşa müsabiqəsində (V-IX sinif şagirdləri arasında) təhsil müəssisəsi rayon üzrə 1-ci yerə layiq görülərək zona müsabiqəsinə vəsiqə qazanıb, zona müsabiqəsində 2-ci yeri tutub. Heydər Əliyev Fondunun təşkilatçılığı və maliyyə dəstəyi ilə 47 ümumtəhsil məktəbi arasında keçirilən intellektual bilik yarışında 1 saylı məktəb yenə də birinciliyi əldən verməyib. Məktəbdə hərbi-vətənpərvərlik mövzusu daim gündəmdə saxlanılır. Qeyd etmək lazımdır ki, Qarabağ müharibəsi zamanı məktəbin 13 nəfər məzunu şəhidlik zirvəsinə ucalıb. 2016-cı ilin aprel hadisələri zamanı məktəbin məzunu İsgəndərov Nicat Bəhruz oğlu qəhrəmanlıq göstərərək şəhid olmuşdur. Onun xatirəsini əbədiləşdirmək üçün məktəbin bir otağında xüsusi guşə yaradılmış və təhsil müəssisəsinin yerləşdiyi küçəyə şəhid Nicat İsgəndərovun adı verilərək, onun xatirəsi əbədiləşdirilmişdir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Onun işıqlı xatirəsi qəlblərdə yaşayır

Bir gün bu dünyaya gələn, bir gün də onu tərk edəcək. Bu, təbiətin qanunudur. İnsan bu dünyadan köçəndə özü ilə heç nə aparmasa da, özündən sonra nə isə bir iz qoyub gedir: biri var-dövlət, biri cah-calal, birisi də xeyirxah işlər, nəcib əməllər, xoş xatirələr... Azərbaycan Memarlıq və İnşaat Universitetində bu gün də adı hörmətlə, ehtiramla çəkilən, vaxtilə bu tədris ocağının 12 il rektoru vəzifəsində işləmiş, Əməkdar ali məktəb işçisi, professor Buniyat Sərdar oğlu Sərdarov da bax, belə xeyirxah işlər, nəcib əməllər sahibi olan insanlardan idi.

Universitetimizin ilk illərdə elm-təhsil ocağı kimi formalaşmasından söhbət düşəndə professor Buniyat Sərdarovun adı hörmətlə çəkilir. Hamı ondan bacarıqlı bir kollektiv rəhbəri, böyük təşkilatçı, gözəl insan kimi söhbət açır.

Buniyat Sərdarov 1966-cı ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirdikdən sonra bir müddət həmin institutda qalıb işləmişdir. 1969-cu ildə o, Moskva İnşaat Mühəndisləri İnstitutunun aspiranturasına daxil olmuş və 1973-cü ildə orada namizədlik dissertasiyasını müdafiə etmişdir. 1975-1976-cı illərdə isə Buniyat Sərdarov London Universitetində elmi iş aparmışdır.

1978-ci ildə Buniyat Sərdarov keçmiş Azərbaycan KP Mərkəzi Komitəsində elm-təhsil müəssisələri şöbəsinin müdir müavini vəzifəsində çalışmışdır. Burada işlədiyi illər ərzində o, özünün bacarıqlı, qabiliyyətli, respublikamızda elm və təhsilin səriştəli təşkilatçısı olduğunu bir daha sübut etmişdir.

1981-ci ildə respublikamızın ozamankı rəhbərliyinin göstərişi ilə Buniyat Sərdarov 36 yaşında Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun rektoru təyin olunmuşdur. O, rektor işlədiyi illərdə tədris işi sahəsində qarşıya qoyulan əsas məsələyə - tədris prosesi keyfiyyətinin artırılmasına və istehsalatla əlaqəsinin genişləndirilməsinə nail olmuşdur. Tikinti kompleksinin qabaqcıl müəssisələrində kafedraların filialları yaradılmış, respublikanın qabaqcıl təcrübəli mütəxəssisləri tədris prosesinə cəlb edilmiş, diplom layihələrinin istehsalatda müdafiəsi həyata keçirilmişdir.

İstehsalat və tədris təcrübələrinin nəinki Azərbaycanın, eləcə də Sovet İttifaqının qabaqcıl müəssisələrində, habelə Çexoslovakiya, Polşa və Almaniyada keçirilməsi təşkil edilmişdir. İnstitutun tələbələri Polşa, Çexoslovakiya və Almaniya institutlarına təhsil almağa göndərilirdi.

Fakültələrin, kafedraların və elmi-tədqiqat laboratoriyalarının texniki təchizatının artırılmasına xeyli diqqət yetirilmişdir. İnstitutun kadr tərkibi də yaxşılaşdırılmışdır. 1984-cü ildə institutda xarici vətəndaşlar üçün hazırlıq şöbəsi açılmış, Asiya, Afrika və Latın Amerikasının 32 ölkəsindən buraya tələbə təhsil almağa gəlmişdir.

Onun rektorluğu dövründə Azərbaycanda memar və inşaatçı kadrların hazırlanmasına xüsusi diqqət yetirilmiş, universitet məzunları nəinki ölkəmizdə, habelə onun hüdudlarından kənarda da işləməklə bu təhsil ocağının kadr coğrafiyasını xeyli genişləndirmişdir.

Buniyat Sərdarov 1987-ci ildən ömrünün son günlərinədək - 2017-ci ilin iyununadək universitetimizin böyük bir ixtisas kafedrasına - yapışdırıcı materiallar və betonlar texnologiyası kafedrasına rəhbərlik etmişdir. Burada o, ixtisaslı kadrların hazırlanmasına, kafedrada tədris olunan fənlərin tələbələrə öyrədilməsinə həmişə böyük önəm vermişdir.

Buniyat Sərdarovun bir alim kimi də xidmətləri böyükdür. 40 illik elmi-pedaqoji fəaliyyəti dövründə onun Azərbaycan dilində 15 dərsliyi, 300-ə yaxın elmi-metodik əsəri çap olunmuşdur.

Elmə, təhsilə həmişə böyük önəm verən Buniyat müəllim heç vaxt haqqı nahaqqa verməzdi. Yığıncaqlarda həmişə təhsilimizin qarşısında duran problemlərdən, elmi ictimaiyyətimizi düşündürən məsələlərdən danışardı. Vətəndaş mövqeyini qoruyan, sözünün yerini bilən bir ziyalı idi.



Professor Buniyat Sərdarov parlaq şəxsiyyət, əqidəli vətəndaş, yüksək mədəniyyətə malik bir insan idi. Onun fədakar əməyi və yaradıcılıq fəaliyyəti hökumətimiz və digər ölkələrin elm-təhsil mərkəzləri tərəfindən layiqincə qiymətləndirilmişdir. Təkcə onu demək kifayətdir ki, o, respublikamızın Əməkdar ali məktəb işçisi fəxri adına layiq görülmüş, "Tərəqqi" medalı, Meksikanın Mexiko-Siti Universitetinin Fəxri medalı ilə təltif olunmuşdur.

El məhəbbətini qazanmaq hər adama nəsib olmur. Axı, el gözü tərəzidir, yaxşı-yamanı özü ədalət süzgəcindən keçirir. Buniyat Sərdarovu tanıyanlar da onu təmiz qəlbinə, əməlisaleh ziyalı olduğuna görə sevirlər. O, yada düşəndə onu tanıyanların ilk sözü həmişə belə olur:

- Ruhun şad olsun, Buniyat müəllim!

**Tahirə HAQVERDİYEVA,**
**Memarlıq və İnşaat Universitetinin inşaat-texnologiya fakültəsinin dekanı.**

# Azərbaycan Prokurorluğunun yaradılmasının 100 illiyi münasibətilə tədbirlər

## Goranboy

Rayon icra hakimiyyəti, Rayon Prokurorluğu ilə birgə prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan Respublikası Prokurorluğunun yaradılmasının 100-cü ildönümü münasibətilə tədbir keçirib. Tədbiri giriş nitqi ilə açan Goranboy RİH başçısı Nizaməddin Quliyev qeyd etdi ki, hər bir dövlətin müstəqilliyini şərtləndirən, onu əbədiləş-



dirən amillər ilk növbədə qanunların aliliyinin təminatından, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinin keyfiyyətindən və ədalət mühakiməsinin beynəlxalq tələblərə uyğunlaşdırılmasından asılıdır.

Ümummilli lider Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra respublikada qanunun aliliyinin təmin olunmasını, vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən elan etmiş, bu ali məqsədlərin gerçəkləşdirilməsinə yönəlmiş çoxşaxəli islahatların həyata keçirilməsini daim diqqətdə saxlamışdır. Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında Ümumxalq Referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və müasirləşməsinə ciddi təminat yaratdı. Rayon rəhbəri çıxışının sonunda prokurorluq orqanının fədakar işçilərini peşə bayramı münasibəti ilə təbrik etdi.

Sonra çıxış edən Goranboy rayon prokuroru Fuad Məmmədov Azərbaycan prokurorluğunun yaranması və inkişafı yolundan danışaraq qeyd etmişdir ki, prokurorluğun əvvəlki statusu ölkənin gələcək inkişafı, yeni sosial-iqtisadi, ictimai-siyasi münasibətlərlə və beynəlxalq standartlarla uzlaşmadığından ulu öndərimiz Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır.

Prokurorluq orqanlarının qanunçuluğun təmini və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində nüfuzlu təsisata çevrilməsi, yenidən strukturlaşaraq fəaliyyətini dövrün tələbləri səviyyəsində qurması məhz ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında aparılmış mütərəqqi islahatlar nəticəsində mümkün olmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabrın 1-i prokurorluq işçilərinin peşə bayramı günü elan olunmuş, eyni zamanda, onun şəxsi təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikasında Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. Bu möhtəşəm addım prokurorluq orqanları əməkdaşlarının fəaliyyətinə verilən yüksək qiymətlə yanaşı, həm də Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ənənələrinin bərpası olmuşdur. Goranboy rayon prokurorluğu bu il 100 illik yubileyi yüksək göstəricilərlə qarşılayır. Əməkdaşlarımız işlərini günün tələbləri səviyyəsində quraraq, qanunların aliliyini əldə rəhbər tutur, insanların hüquq və azadlıqlarının təminatı, cinayətkarlığa qarşı mütəşəkkil mübarizə sahəsində qətiyyətlə mübarizə aparırlar.

Natiq çıxışının sonunda Azərbaycan Prokurorluğunun 100 illik yubileyi münasibətilə prokurorluq orqanlarının hər bir işçisini, veteranları səmimi qəlbdən təbrik edərək onlara möhkəm cansağlığı, işlərində yeni-yeni nailiyyətlər arzuladı və tam əminliklə bildirdi ki, Goranboy Rayon Prokurorluğu olaraq üzərlərinə düşən məsul və şərəfli vəzifələri layiqincə yerinə yetirmək üçün bundan sonra da daha böyük səy və fədakarlıqla çalışacaqlar.

Digər çıxış edənlər də Azərbaycan prokurorluğunun 100 illik yubileyi və peşə bayramı münasibətilə prokurorluq işçilərinə öz səmimi təbriklərini çatdırıblar.

Sonda bir qrup prokuror işçiləri "Fəxri Fərman"larla təltif olundular. Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Dövlət Qulluğunda Fərqlənmə" medalını "Yeni-yol" KİƏDİN-si Adil Şirinova təqdim etdi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

## Biləsuvar

Bu günlərdə Biləsuvar rayonunda prokurorluq işçilərinin peşə bayramı və Respublika Prokurorluğunun yaranmasının 100 illiyi münasibəti ilə tədbir keçirildi.

Tədbirdə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev, hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların rəhbərləri, RİH və rayon prokurorluğunun işçiləri iştirak etdi.

Yığıncaq iştirakçıları əvvəlcə Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edərək abidə önünə tər çiçəklər düzdülər. Rayon icra hakimiyyətinin başçısı Mahir Quliyev 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə prokurorluq sahəsində çalışan bütün əməkdaşları təbrik edərək onlara bundan sonra da ölkəmizdəki digər dövlət təşkilatları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin, dövlətçiliyimizin maraqlarının qorunması, cinayətkarlığa



qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində yeni-yeni uğurlar arzuladı.

Bildirdi ki, prokurorluq orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin müstəsna rolu olub. Azərbaycan Respublikasının Prezident İlham Əliyev prokurorluq işçilərinə daim diqqət və qayğıkeşliklə yanaşır. Bunun nəticəsidir ki, prokurorluq əməkdaşlarının əmək haqları xeyli artırılıb, şəxsi heyətin məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb.

Tədbirdə Biləsuvar rayon prokuroru Qabil Əliyev çıxış edərək "Prokurorluq orqanlarının yaranma tarixi, formalaşması və fəaliyyəti" mövzusunda geniş məlumat verdi və bildirdi ki, prokurorluq orqanları öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmaqla daim qanunun aliliyini rəhbər tutaraq cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində, cəmiyyətin və dövlətimizin maraqlarının qorunmasında mühüm rol oynayır.

Rayon prokuroru onlara göstərilən yüksək diqqət və qayğıya, prokurorluq işçilərinin əməyinə verilən dəyərə görə rəhbərlik etdiyi kollektiv adından dərin minnətdarlığını bildirdi.

Sonda prokurorluq işçilərinin peşə bayramı və Azərbaycan prokurorluq orqanlarının yaranmasının 100 illiyi münasibətilə rayon Prokurorluğunun əməkdaşları Biləsuvar Rayon İcra Hakimiyyəti başçısının Fəxri fərmanları ilə təltif olundular.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

# Kaliforniya qubernatoru ermənipərəst qanun layihəsinə veto qoyub

**ABŞ-ın Kaliforniya ştatının qubernatoru Cerri Braun bu ştatın Dövlət Məclisinin "AB 1597" qanun layihəsinə veto qoyub. Sənəddə guya 1915-ci ildə türklər tərəfindən Osmanlı imperiyasının erməni əhalisinə qarşı "soyqırımı" törədilməsi haqqında ermənilərin ittihamları və iddiaları ilə razılaşmadığına görə Kaliforniya hökumətinin Türkiyə əleyhinə sanksiyalar tətbiq etməsi nəzərdə tutulurdu. Birləşmiş Ştatlar rəhbərliyinin rəsmi mövqeyinə görə, 1915-ci il hadisələri soyqırımı hesab edilmir və müvafiq olaraq, ABŞ-ın bütün ştatları federal hökumətin siyasətinə uyğun olaraq bu xarici siyasət xəttinə əməl etməlidirlər. Bundan başqa, Birləşmiş Millətlər Təşkilatı və Avropa İnsan Hüquqları Məhkəməsi hesab edirlər ki, ermənilərin soyqırımı iddiaları sübut olunmuş fakt deyil.**

"AB 1597" dövlətlərə qarşı tətbiq olunan tipik "boykot-divestisiya-sanksiyalar" tədbiridir. Ermənilər bu qanun layihəsindən istifadə edərək Kaliforniya dövlət qulluqçularının pensiya təminatı sistemini (CALPERS) və ştatın müəllimlərinin pensiya təminatı sistemini (STRS) Türkiyə Respublikasında yerləşən maliyyə vasitələrindən imtinaya məcbur etməyə çalışırdılar. "AB 1597" erməni lobbisinə Türkiyəni gəlirli sərmayə mənbəyi kimi qiymətləndirən Kaliforniya pensiya sərmayə orqanlarının fidutsiar (etibara əsaslanan) öhdəliklərini ələ keçirməyə imkan verəcəkdi. Kaliforniya ştatı Assambleyası hələ 2017-ci ilin iyununda mənşəcə erməni olan Assambleya üzvü Adrin Nazaryanın təqdim etdiyi qanun layihəsini qəbul edib. Məlum olduğu kimi, Amerika Erməni Milli Komitəsi və Erməni Gənclər Federasiyası ("Daşnaksutyun" partiyasının gənclər qolu) Kaliforniya ştatını Türkiyə hökumətinin nəzarət etdiyi maliyyə vasitələrindən gələn dövlət vəsaitindən məhrum etmək üçün uzun illərdir bu qanun layihəsini gündəliyə daxil etməyə çalışırdılar.

**AZƏRTAC**

# Tələbələrin təhsilinə dəstək



Təhsilə dəstək, savadlı və xüsusi istedadlı gənclərin yetişdirilməsi, onların qayğı ilə əhatə olunması və inkişafı "Veysəloğlu" şirkətlər qrupunun Korporativ Sosial Məsuliyyət strategiyasında özünün prioritetliyini qoruyub saxlamaqdadır.

Bakalavr təhsilini xüsusi fərqlənmə ilə bitirən tələbələrin seçimini aparan şirkətlər qrupu onların xaricdə təhsil alaraq, beynəlxalq təcrübə qazanmaları üçün lazımi köməkliyi göstərməkdə davam edir.

"Veysəloğlu" qrupu Avropanın nüfuzlu universitetlərindən olan Turin Politexnik Universitetinin neft və mədən mühəndisliyi ixtisası üzrə magistr təhsili alması üçün 3 istedadlı gəncə - Əlirza Orucov, Qasım Əlicanov və Cavid Salmanova dəstək olub.

Qeyd edək ki, şirkətin dəstək olduğu tələbələrdən biri Əlirza Orucov bir neçə innovativ layihənin müəllifidir. O, "Şumsuz əkin", "Təmiz ada" layihələri ilə bir neçə müsabiqənin qalibi olub.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

# DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

## ❑ DONALD TRAMPDAN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏRT XƏBƏRDARLIQ



"Əgər on illərdi davam edən hərbi dəstəyimiz olmasa, Səudiyyə Ərəbistanı monarxiyası iki həftə ərzində çökə bilər". "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, bunu ABŞ prezidenti Donald Tramp Missisipi ştatında çıxışı zamanı bəyan edib.

"Mən kral Salmanı sevirəm. Biz Səudiyyə Ərəbistanını qoruyuruq. Lakin mən krala dedim. Biz olmadan siz orada iki həftə belə qala bilməzsiniz. Siz bu qorumaya görə ödəniş etməlisiniz", - deyə Tramp vurğulayıb.

Məlumata görə, ABŞ prezidenti kral Salmanla danışığının nə vaxt baş tutduğunu açıqlamasa da, hər iki lider ötən şənbə telefon danışığı zamanı qlobal neft tədarükü məsələsini müzakirə edib.

Eyni zamanda, bildirilir ki, Donald Tramp çıxışı zamanı dəfələrlə ABŞ hərbçiləri və ölkəsinin "qoruyucu" rolunu vurğulayıb. O, həmçinin NATO-ya üzv ölkələrin alyansa öz töhfələrini verməli olduğunu qeyd edib.

Bildirilir ki, Donald Tramp, hələlik neftlə zəngin regionda ABŞ hərbçilərinin saxlanılmasına görə pul tələb etməyib, lakin ABŞ prezidenti təkidlə bu ölkələrin təhlükəsizliyinin qarşılığında neft qiymətlərini aşağı salmağı istəyib.

Donald Tramp deyib: "Biz bu xalqların böyük əksəriyyətini pulsuz qoruyuruq, lakin onlar bizə baha neft qiymətləri təklif etməklə üstünlük əldə edirlər. Bu yaxşı hal deyil. Biz onlardan neftin qiymətini qaldırmağı dayandırmalarını və qiymətləri aşağı salmağa başlamalarını istəyirik".

## ❑ RUSİYA DOLLARDAN İMTİNA EDİR



Rusiya hökuməti ölkə iqtisadiyyatının dollarsızlaşmasını nəzərdə tutan qanun layihəsi hazırlayır. "Sputnik" informasiya agentliyinin verdiyi məlumata görə, bu barədə "The Bell" nəşri öz mənbələrinə istinadən xəbər verib.

Mənbənin sözlərinə görə, qanun layihəsinin yaxın həftələrdə baş nazir Dmitri Medvedev tərəfindən imzalanması nəzərdə tutulub. Qanun layihəsinin müzakirəsində iş adamları, həmçinin Rusiyanın böyük bankları, o cümlədən Mərkəzi Bankı da iştirak edir.

Məlumata əsasən, layihə Birləşmiş Ştatlar valyutasından tam imtinanı nəzərdə tutmur. Söhbət hesablaşmalarda digər milli valyutalarla istifadə üçün imkanların yaradılmasından, həmçinin valyuta qanunvericiliyinin liberallaşdırılmasından və valyuta nəzarətinin sadələşdirilməsindən gedir.

Eyni zamanda, bildirilir ki, bu addımlar Rusiya biznesinə istənilən valyuta ilə hesablaşmağa və bu zaman zərər çəkməməyə imkan verəcək.

Rusiya hökumətinin mətbuat xidmətindən verilən açıqlamada deyilir: "Dollara qarşı hər hansı bir qadağa və ya məhdudiyyət qoymaq gündəmimizdə yoxdur. Rusiya hökumətinin iqtisadi və maliyyə sahələri, iqtisadiyyatımızın ABŞ-ın pul vahidinə olan asılılığını azaltmaq üzərində çalışır. Bununla yanaşı, xarici əməliyyatlarda istifadə edilən pulun da milli pul vahidinə çevrilməsi üçün təşviqlər və mexanizmlər yaradılması üzərində də işlər davam edir".

## ❑ ÇİNİN ƏN VARLI ADAMI ABŞ-ÇİN MÜHARİBƏSİNƏ DAİR XƏBƏRDARLIQ EDİB



Dünyanın nəhəng "Alibaba Group" elektron kommersiya şirkətinin qurucusu və Çinin ən varlı adamı Cek Ma Amerika Birləşmiş Ştatları və Çin arasındakı ticarət müharibəsindən hər kəsin zərər görə biləcəyinə dair xəbərdarlıq edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

İsveçrənin Cenevrə şəhərində təşkil olunan Dünya Ticarət Təşkilatı seminarında çıxışı zamanı Cek Ma ABŞ və Çin arasındakı ticarət münaqişəsinin 20 il davam edə biləcəyini vurğulayıb.

Cek Ma deyib: "Ticarətin bitməsilə bəzən döyüşlər başlayır. Ticarət müharibənin qarşısını alan bir yoldur. Ticarət etimadı inşa etmək üçün bir vasitədir. Ticarət bir-birinə savaş açmaq üçün bir silah deyil. İş dünyasının müharibəyə yox, ticarətə ehtiyacı var".

Məlumat üçün qeyd edək ki, "Alibaba Group"dan ötən ay verilən xəbərə görə, Cek Ma şirkətin idarə heyətinin sədri vəzifəsini 10 sentyabr 2019-cu ildə şirkətin yüksək vəzifəli idarəçisi Daniel Zhanqa təhvil verəcək.

## ❑ VLADİMİR PUTİNDƏN DONALD TRAMPA QARŞI GÖZLƏNİLMƏZ İTTİHAM



Rusiyanı bir barrel neft üçün 65-75 dollar qane edir. "Sputnik" informasiya agentliyinin Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bunu Rusiya Enerji Həftəsinin plenar iclasında çıxışı zamanı Rusiya prezidenti Vladimir Putin bəyan edib.

"Prezident Donald Tramp hesab edir ki, bu qiymət yüksəkdir. Mənə elə gəlir ki, o, qismən haqlıdır. Bizi bir barrel üçün 65-70-75 dollar qane edir", - deyə Vladimir Putin vurğulayıb.

Rusiya prezidentinin sözlərinə görə, bu, enerji şirkətlərinin və investisiya prosesinin effektiv işləməsi üçün kifayətdir.

Eyni zamanda, Vladimir Putin qeyd edib ki, hazırda neftin qiymətinin daha da baha olması bir növ hazırkı ABŞ administrasiyasının işinin nəticəsidir.

Vladimir Putin deyib: "İrana qarşı yeni sanksiyaların tətbiqinə dair gözləntilər, Venesuelada siyasi problemlər, Liviyada baş verənlərə bir baxın - dövlət məhv olub, məsuliyyətsiz siyasətin nəticəsi budur. Bu isə birbaşa dünya iqtisadiyyatına təsir edir. Biz belə nasazlıqların baş verməməsi üçün yalnız energetika deyil, həm də siyasi sahədə də sıx əməkdaşlıq etməliyik".

Bununla yanaşı, Rusiya prezidenti çıxışı zamanı Helsinkidə ABŞ prezidenti ilə görüşünü də xatırlayıb: "Bizim Helsinkidə ABŞ prezidenti ilə çox yaxşı görüşümüz baş tutdu, lakin biz hazırda müzakirə etdiyimiz bu mövzuya toxunsaydıq, mən ona deyərdim ki, Donald, əgər sən neft qiymətlərinin artmasında günahkarı tapmaq istəyirsənsə, onda güzgüyə bax".

## ❑ İSHAQ CAHANGİRİ İRAN XALQINDAN ÜZR İSTƏYİB



İran prezidentinin birinci müavini İshaq Cahangiri ölkəsində yaşanan problemlər səbəbindən xalqdan üzr istəyib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, İranın paytaxtı Tehranda keçirilən tədbirdə çıxış edən İshaq Cahangiri deyib: "Ölkəyə psixoloji təzyiq göstərirlər. Bəziləri isə bu təzyiqdən istifadə etməyə çalışır. Bəzi nöqsanlar və problemlər səbəbindən xalqımızdan üzr istəyirəm".

Eyni zamanda, İranda xalq üçün şərtlərin çətinləşdiyini qəbul etdiyini dilə gətirən İshaq Cahangiri bu problemlərin bir qisminin Amerika Birləşmiş Ştatlarının sanksiyaları ilə əlaqədar olduğunu vurğulayıb.

İslahat tərəfdarlarına yaxınlığı ilə tanınan İshaq Cahangiri ölkəsində baş verən problemlərin bir qisminin isə ölkənin daxili iqtisadi siyasətindən irəli gəldiyini qeyd edib.

Bununla yanaşı, İshaq Cahangiri doğru addımların atılacağı təqdirdə problemlərin həll edilə biləcəyini bildirib.

Məlumata görə, İranda xalq ölkədə idarəetmə probleminin olduğunu irəli sürsə də, ölkə rəhbərliyi baş verən böhranlara görə başda ABŞ olmaqla Qərb ölkələrini təqsirləndirir.

## ❑ İNDONEZİYADA ZƏLZƏLƏ QURBANLARININ SAYI 1400 NƏFƏRİ KEÇDİ



İndoneziyanın Sulavesi adasında ötən cümə günü baş verən zəlzələ və sunami nəticəsində həlak olanların sayı 1407 nəfərə çatıb. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

İndoneziyanın Təbii Fəlakətlərlə Mübarizə Agentliyinin mətbuat katibi Purvo Nuqroho həlak olan 519 nəfərin artıq dəfn edildiyini bildirib.

Eyni zamanda, zəlzələ və sunami nəticəsində 2549 nəfərin də yaralandığını bildirən mətbuat katibi 100-dən çox adamın itkin düşdüyünü vurğulayıb. O, 61 mindən çox insanın müvəqqəti düşərgələrə sığındığını qeyd edib.

Həmçinin dövlət rəsmiləri təbii fəlakət nəticəsində iki mindən çox məkdəbin ciddi ziyan gördüyünü bildiriblər.

ABŞ Geoloji Araşdırmalar Xidməti İndoneziyanın şimalında yerləşən Sulavesi adasının Palu körfəzindən 27 kilometr şimalda cümə günü 7,5 bal gücündə zəlzələnin qeydə alındığını açıqlamışdı. Yerli mənbələr isə zəlzələnin 7,4 bal gücündə baş verdiyini qeyd etmişdi. Zəlzələdən sonra Donqala və Palu şəhərlərində sunami fəlakəti baş vermişdi.

Xatırladaq ki, İndoneziyanın Lombok adasında iyulun sonunda və avqust ayının əvvəlində baş verən 6,3, 6,9 və 7 bal gücündə zəlzələlər nəticəsində 563 nəfər həlak olub.

Məlumat üçün qeyd edək ki, İndoneziyada 2004-cü il dekabrın 26-da baş verən 9,1 bal gücündəki zəlzələ və sunami nəticəsində 230 min nəfər dünyasını dəyişib. ■

# Qızılağac Qoruğu əməkdaşlarına silahla xəsarət yetirən şəxs barəsində cinayət işi başlanıb

**Oktyabrın 1-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Qızılağac Dövlət Təbiət Qoruğundan qoruq əməkdaşlarının reyd zamanı ərazidə qanunsuz ov edən şəxs tərəfindən ov silahı ilə atəş açılması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri almaları barədə daxil olmuş material Masallı Rayon Prokurorluğunda araşdırılıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, araşdırmalarla həmin tarixdə saat 02 radələrində qoruq ərazisində qanunsuz ov edən rayon sakini İlqar Səmədovun qoruğun mühafizəçiləri Böyükkişi Qaraşovun və Ariz Cəfərovun qanuni göstərişlərinə məhəl qoymayıb məsuliyyətdən yaxa qurtarmaq məqsədilə ov tüfəngindən iki dəfə atəş açıb müxtəlif dərəcəli bədən xəsarətləri yetirməsinə əsaslı şübhələr müəyyən edildiyindən rayon prokurorluğunda Cinayət Məcəlləsinin 315.2-ci (hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) maddəsi ilə cinayət işi başlanıb.

İş üzrə müvafiq ekspertizalar təyin olunub, şahidlər dindirilib və digər istintaq hərəkətləri aparılıb.

İ.Səmədov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

**AZƏRTAC**

*XİN:*

# Latviya vətəndaşının adı arzuolunmaz şəxslər siyahısından çıxarılıb

**Latviya Respublikasının vətəndaşı, "İMPRO Travels LTD\" tur agentliyinin əməkdaşı Harijs Egliens Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı"ndan çıxarılmasını xahiş edib.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubunda Harijs Egliens 2015-ci ilin oktyabrında Dağlıq Qarabağa səfər etdiyini bildirib və səfərinin doğuracağı nəticələr barədə məlumatlı olmadığını ifadə edib. O, bu səfərin Azərbaycan Respublikasına və xalqına qarşı heç bir halda hörmətsizlik anlamı daşımadığını vurğulayıb.

Harijs Egliens Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə, suverenliyinə və qanunlarına hörmət etdiyini bildirib, sözügedən səfərlə əlaqədar Azərbaycan hökuməti və xalqından üzr istədiyini qeyd edib.

Səfərlə əlaqədar təəssüfünü ifadə edən Harijs Egliens Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinə səfərin heç bir halda bu bölgədə yaradılmış qondarma rejimin təşviqinə xidmət etmədiyini vurğulayıb.

Həmçinin o, gələcəkdə Azərbaycanın işğal edilmiş ərazilərinə səfər etməyəcəyini diqqətə çatdırıb.

Sonda Harijs Egliens gələcəkdə ölkəmizə səfər etməsi üçün icazə verilməsini xahiş edib.

Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul olunub.

**AZƏRTAC**

## Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci 2018-ci il üçün tələb olunan maddələr üzrə

## AÇIQ TENDER ELAN EDİR

**Tender iki lot üzrə keçirilir.**

**Lot-1.** Cari təmir

**Lot-2.** Əsaslı təmir

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Lotlar üzrə ümumi məbləğin 1 faizi həcmində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecindən ala bilərlər.

**İştirak haqqı:**

**Lot-1. Cari təmir - 120.00**

**Lot-2. Əsaslı təmir - 120.00**

Təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci, Yasamal Rayon YXO

*Hesab: AZ73CTRE00000000000002168406*

*VÖEN: 1300345001*

*Bank: UNİBANK SB*

*Kodu: 505754, Vöen: 1300017201*

*Müxbir Hesabı:*

*AZ46NABZ01350100000000015944*

*S.W.İ.F.T. UBAZAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- Tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*- Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- Tender təklifi (zərflərin açıldığı gündən sonra 30 bank günü qüvvədə olmalıdır);*

*- Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü qüvvədə olmalıdır;*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*

*- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- İddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, iki nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcək.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 6 noyabr 2018-ci il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 16 noyabr 2018-ci il saat 17:00-a qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 19 noyabr 2018-ci il saat 11:00-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Ünvan:** *Bakı şəh., İnşaatçılar prosrekti, 11*

**Əlaqə telefonu:** *+994125372172.*

**Tender Komissiyası.**

## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti tikinti materiallarının satınalınması məqsədilə 1 lotdan ibarət

**TƏKRAR**

## AÇIQ TENDER ELAN EDİR

**Lot-1.** Tikinti materiallarının satınalınması

İştirakçılara təklif edilir ki, "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, yuxarıda göstərilən lot üzrə Tender təklifini yazılı surətdə möhürlənmiş, imzalanmış ikiqat zərflərdə Azərbaycan dilində təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Potensial imkanı olan iddiaçılar 400 manat iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra lot üzrə əsas şərtlər toplusunu "Azərbaycan Hava Yolları" QSC-nin Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportu ünvanında ala bilərlər:

*"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti AZ 1044, Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportu, VÖEN: 9900000831, "Bank Silk Vey" Açıq Səhmdar Cəmiyyəti, M/h: AZ70NABZ01350100000000020944, Bankın kodu: 507473, VÖEN:9900006241, SWİFT BİK: AZAL AZ 22, H/H: AZ 15AZAL38050001000000000000;*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*- iddiaçının oxşar işlərinin aparılması üzrə təcrübəsi haqqında arayış;*

*- iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- iddiaçının tam adı və hüquqi statusunu əks etdirən sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış, VÖEN və s.) surəti, həmçinin bank rekvizitləri;*

*- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*

*- tender təklifinin qüvvədə olma müddəti (zərflərin açıldığı gündən sonra ən azı 30 (otuz) bank günü müddətində qüvvədə olmalıdır);*

*- tender təklifinin təminatı ümumilikdə təklifin 4% (dörd faizi) həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 (altmış) bank günü müddətində qüvvədə olmalıdır);*

*- tender təklifinin bütöv sifariş üzrə qiymətləri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 23 oktyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş , imzalanmış ikiqat zərflərdə 1 noyabr 2018-ci il saat 18:00-a qədər Azərbaycan Respublikası, AZ 1044, Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportuna təqdim etməlidirlər.

İddiaçıların tender təklifi zərfləri 2 noyabr 2018-ci il tarixində saat 11:00-da AZ 1044, Bakı şəhəri, Binə qəsəbəsi, Heydər Əliyev Beynəlxalq Aeroportu ünvanında açılacaq.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçının səlahiyyətli nümayəndəsi zərflərin açılması prosedurunda iştirak edə bilər.

Tenderlə əlaqədar əlavə məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Əsəd Cəlilov (+994 12) 497-26-00 (əlavə 40-42; 90-20); (+994 12) 437-49-22.**

**Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi

## AÇIQ TENDER ELAN EDİR

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (Komitə) "Memarlıq və inşaat sahəsində elmi-tədqiqat işlərinin elmi-texniki tərəqqiyə uyğun şəkildə aparılması" və "Şəhərsalma və tikintiyə dair normativ sənədlərin hazırlanması" işlərinin satınalınması məqsədi ilə 2 lot üzrə açıq tender keçirir:

**Lot 1** - "Memarlıq və inşaat sahəsində elmi-tədqiqat işlərinin elmi-texniki tərəqqiyə uyğun şəkildə aparılması" - icra müddəti 270 gün;

**Lot 2** - "Şəhərsalma və tikintiyə dair normativ sənədlərin hazırlanması" - icra müddəti 540 gün.

Görüləcək işlərin tərkibi və həcmi haqqında ətraflı məlumat Layihə tapşırığında verilir.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş açıq tenderin əsas şərtlər toplularını Komitənin aşağıda qeyd olunmuş hesabına hər bir lot üzrə 150 (bir yüz əlli) Azərbaycan manatı məbləğində iştirak haqqını ödədikdən sonra bu elanda göstərilmiş ünvandan Komitəyə rəsmi müraciət edərək əlaqələndirici şəxs Təyyar Əliyevdən əldə edə bilərlər:

*VÖEN: 1400032621;*

*Hesab: 2278501;*

*Ünvan: Bakı şəhəri, Füzuli küçəsi, 65;*

*Bankın rekvizitləri:*

*Adı: Dövlət Xəzinədarlıq Agentliyi;*

*Kodu: 210005;*

*VÖEN: 1401555071*

*Müxbir hesabı: AZ41NABZ01360100000000003944,*

*SWIFT.BIK.CTREAZ22.*

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır. Ödəniş sənədində məqsədli maliyyələşmə olması göstərilməlidir.

Tenderdə iştirak edən iddiaçının aidiyyəti sahələr üzrə müvafiq təcrübəyə, texniki imkanlara, xüsusi avadanlıqlara, ixtisaslaşmış peşəkar işçi qüvvəsinə, idarəetmə səriştəsi və satınalma müqaviləsini bağlamaq səlahiyyətinə malik olması, eyni zamanda, son 5 ildə Lot 1 üzrə memarlıq və inşaat sahəsində azı üç elmi-tədqiqat işi, Lot 2 şəhərsalma və tikintiyə dair normativ sənədlərin hazırlanması sahəsi üzrə isə bir normativ və ya bir ərazi planlaşdırma sənədi işləmiş olması tələb olunur.

Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər 07 noyabr 2018-ci il yerli vaxtla saat 16:00-dək Komitəyə aşağıda qeyd edilmiş sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə;*

*-iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi (əsli);*

*-iştirakçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-iştirakçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*-iştirakçının son bir ildəki fəaliyyəti barədə vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-müvafiq fəaliyyət növü üzrə lisenziyanın surəti;*

*-iştirakçının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmamasına dair müvafiq rayon vergilər idarəsi və dövlət sosial müdafiə fondu tərəfindən verilmiş arayışlar;*

*-müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış.*

İddiaçılar tender təklifi və tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatını bağlanmış, imzalanmış və möhürlənmiş ikiqat zərfdə 19 noyabr 2018-ci il yerli vaxtla saat 16:00-a qədər, Bakı şəhəri, Füzuli küçəsi, 65 ünvanında yerləşən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim etməlidirlər.

İddiaçı öz tender təklifində satınalma müqaviləsi ilə əlaqədar tətbiq olunacaq bütün növ vergiləri (ƏDV daxil olmaqla) nəzərə almalıdır.

İddiaçının texniki və maliyyə təkliflərindən ibarət tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı tarixdən sonra azı 30 bank günüdür, tender təklifi ilə birlikdə təqdim olunan tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatının qüvvədə olma müddəti isə tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır.

Sənədlər Azərbaycan dilində, iki nüsxədə (əsli və surəti olmaqla) tərtib edilməlidir.

İddiaçılar bu tenderin əsas şərtlər toplusunda göstərilmiş keyfiyyət və qiymət seçim üsuluna (KQS) əsasən seçiləcəkdir. İddiaçıların təklifinin qiymətləndirilməsi zamanı satınalan təşkilat xarici iddiaçıların tender təklifləri (idxal olunan mallar, işlər və xidmətlər üzrə) ilə müqayisədə yerli iddiaçıların tender təkliflərinin (mallar, işlər və xidmətlər üzrə) xeyrinə 20 faizə qədər həcmində güzəştli düzəliş tətbiq edəcəkdir.

Göstərilən vaxtdan gec təqdim edilmiş təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri olan zərflərin açılışı 20 noyabr 2018-ci il tarixində yerli vaxtla saat 16:00-da Bakı şəhəri, Füzuli küçəsi, 65, III mərtəbədə yerləşən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin iclas zalında keçiriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

Açıq tender elanı rəsmi internet saytında yerləşdirilmişdir.

(012) 493-34-67 (əlavə 113) telefon nömrəsinə zəng etməklə tender haqqında əlavə məlumat almaq olar.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"AzerGold" QSC tərəfindən "Kəşfiyyat buruq qazma işlərinin satınalınması" predmeti üzrə keçirilmiş açıq tenderdə "AZ Dağ-Mədənistismar" MMC müsabiqənin qalibi elan olunmuşdur. Qalib şirkətlə ümumi məbləği 2 805 989, 61 manat olan müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"AzerGold" QSC,**

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mingəçevir Şəhər Dezinfeksiya Stansiyası 2018-ci il üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Kommunal və kommunikasiya xidmətləri ilə bağlı digər xərclər. Kotirovka sənədləri 8 oktyabr 2018-ci il saat 12:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Mingəçevir şəhəri, Z.Tağıyev küçəsi-46.*

**Əlaqə telefonu:** *(024) 275-47-82*

**Əlaqələndirici şəxs:** *Hüseynova Şəhla Miri qızı.*

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"Respublika" qəzetinin 01 sentyabr 2018-ci il, 12 sentyabr 2018-ci il tarixli nömrələrində "Azərbaycan Sənaye Korporasiyası" ASC-nin "Şüşə istehsal xətti üçün avadanlıqların və ehtiyyat hissələrin alınması, onların sazlaması və istismar vəziyyətinin yoxlanılması" ilə əlaqədar satınalma məqsədi ilə dərc edilmiş açıq tender elanlarında tender təkliflərinin və tender təkliflərinin təminatının qəbulu 23 oktyabr 2018-ci il saat 17.00-a, təkliflərin açılışı isə 24 oktyabr 2018-ci il saat 11.00-a dəyişdirilmişdir.

Tenderin keçirilməsi ilə bağlı əlavə məlumat əldə etmək üçün "ASK" ASC-nin (+994) 12 5059514, daxili 124 telefon nömrəsilə əlaqə saxlamaq mümkündür.

**"ASK" ASC-nin Tender Komissiyası.**

## "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xətti üzrə şərti adı "B03" stansiyasında "Qatarların hərəkət istiqaməti göstəricisi sistemi" və "Sərnişin məlumat sistemi" üçün monitorların quraşdırılmasına lazım olan mal-materialların satın alınması üzrə

**TƏKRAR**

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə, ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən, (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xətti üzrə şərti adı "B03" stansiyasında "Qatarların hərəkət istiqaməti göstəricisi sistemi" və "Sərnişin məlumat sistemi" üçün monitorların quraşdırılmasına lazım olan mal-materialların satınalınması.**

**İştirak haqqı - 200 manat**

*Hesabın adı: BAKI METROPOLITENI QSC*

*Hesab nömrəsi (IBAN):*

*AZ98AZRT38050019440010268002 AZN*

*VÖEN: 1402871431*

*Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)*

*Kod: 501361*

*VÖEN: 9900006111*

*Müxbir hesabı: AZ02NABZ01350100000000022944*

*SWIFT BIK: AZRTAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 29 oktyabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 06 noyabr 2018-ci il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 07 noyabr 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**"BAKI METROPOLİTENİ" QSC**
**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

Azərbaycan Memarlıq və İnşaat Universiteti "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 49-cu maddəsinə uyğun olaraq, kotirovka sorğusu ilə "Azərbaycan Memarlıq və İnşaat Universitetində Yumşaq inventarın alınması" işləri üzrə satınalmasını həyata keçirir.

Satınalmada iştirak etmək istəyənlər 05 oktyabr 2018-ci il tarixində saat 15:00-dək Azərbaycan Memarlıq və İnşaat Universitetinin tender komissiyasına müraciət edə bilərlər.

Təkliflər 08 oktyabr 2018-ci il tarixində saat 11:00-da Azərbaycan Memarlıq və İnşaat Universitetinin I saylı tədris binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri təkliflərin açılışında iştirak edə bilərlər.

**Ünvanımız:**

*Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11*

*Əlaqə telefonu: 538-75-07*

*Əlaqələndirici şəxs: Ələkbərov Vasif.*

**Tender Komissiyası.**

## "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti

## BİLDİRİŞ

"Azərbaycan Dəmir Yolları" QSC tərəfindən 27 iyul 2018-ci il tarixində keçirilmiş "Açıq Tender" üsulu ilə Yük konteynerlərinin satınalınmasına dair satınalma müsabiqəsində Vodohospodarske stavby a.s. qalib elan olunmuşdur. Qalib gəlmiş şirkətlə 3953538,25 ABŞ dolları məbləğində satınalma müqaviləsi imzalanmışdır.

İsmayılova Firqiyə Hacıağa qızının adına Bakı şəhəri, Ə.Ağayev küçəsi, ev 124, mənzil 22-yə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Səfərli Arzu Arif oğlunun adına Bakı şəhəri, (Əzizbəyov) Xəzər rayonu, Şüvəlan qəsəbəsi, 57/3282 saylı bağın çıxarışı və torpaq sahəsinin plan və ölçüsü itdiyi üçün etibarsız sayılır.

DTXK-nin Şabran rayon şöbəsi tərəfindən Çay-Qaraqaşlı kənd sakini Allahyarova Umxanım qızının adına verilmiş JN-0045 saylı torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Qafarov Aqil Abasağa oğluna Abşeron rayonu, TİB-in 35658 nömrəli Xəzər rayonu, Buzovna qəsəbəsində yerləşən fərdi yaşayış evinə verilmiş qeydiyyat vəsiqəsi və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Nizami İlyas oğlu Məmmədov ilə "Bağçalı Evlər" MTK arasında bağlanmış Abşeron rayonu, Masazır kəndi, İstiqlaliyyət küçəsi 2, mənzil 16-da yerləşən mənzilin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Mehdiyeva Gülbikə Mursaqulu qızının adına (Dəvəçi) Şabran rayonu, Zeyvə kəndində yerləşən torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 13 avqust 1997-ci il tarixli 8 nömrəli qərarı ilə Haftoni qəsəbə sakini Balayeva Azadə Akif qızına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 107; KOD 80205005) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 18 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Nərimanabad qəsəbə sakini Əkbərov Balağa Cəlil oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 324; KOD 80207016) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 18 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Liman (keçmiş Port-İliç) şəhərinin sakini Nəcəfova Səkinəxanım Yadulla qızına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 1211; KOD 80202004) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 3 mart 1998-ci il tarixli 12 nömrəli qərarı ilə Şahağacı kənd sakini Həsənov Elçin Elman oğluna verilmişTorpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 879; KOD 80112018) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 17 noyabr 2000-ci il tarixli 26 nömrəli qərarı ilə Şahağacı kənd sakini Əsədullayev Elnur Etibar oğluna verilmişTorpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 952; KOD 80112018) itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Lənkəran ərazi idarəsi tərəfindən Astara rayonunun Şahağacı kəndində yerləşən və Paşayev Aydın Qulamhüseyn oğluna məxsus torpaq sahəsinə verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış (seriya MA; № 0202435; reyestr № 801013003439; qeydiyyat № 2211002594; qeydiyyat tarixi: 30 aprel 2011-ci il) və 1 inventar nömrəli Torpaq sahəsinin planı və ölçüsü (tərtib edilmə tarixi: 30 aprel 2011-ci il) itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

**Etibar Hümbətov, Tural Əliyev, Mahmud Davudov, Rasim Camalov Rauf Xankişiyevə, anası**
**AYNA XANKİŞİYEVANIN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Müşfiq MİRZƏ**

● **Çapa imzalanmışdır**
**03.10.2018**